**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**
**ZAQATALA filialı**

**FAKÜLTƏ:** İQTİSADİYYAT VƏ MENECMENT DEPARTAMENTİ
**BÖLMƏ:** İQTİSADİYYAT VƏ İDARƏETMƏ
**İXTİSAS:** TURİZM İŞİNİN TƏŞKİLİ

Müdafiəyə buraxılır:
«____» «____» 2025-ci il
Bölmə rəhbəri:____________________.

BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ

# B U R A X I L I Ş İ Ş İ

**MÖVZU:** AZƏRBAYCANDA DAYANIQLI TURİZM MƏDƏNİYYƏTİNİN FORMALAŞMASI PROBLEMLƏRİ

**QRUP:** TT12-21
**TƏLƏBƏ:** Mehdiyeva Aytac Rəşid
**ELMİ RƏHBƏR:** b/m İsmayılova Pərvanə Məhəmməd

**ZAQATALA-2025**

# MÜNDƏRİCAT

GİRİŞ.....................................................................................................3
I FƏSİL. DAYANIQLI TURİZM ANLAYIŞININ NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI.....................................................................................................6
1.1. Dayanıqlı turizm anlayışının nəzəri əsasları ........................................6
1.2. Dayanıqlı turizmin iqtisadi və sosial əhəmiyyəti.................................10
1.3. Dayanıqlı turizm mədəniyyətinin nəzəri əsasları.................................13
II FƏSİL. AZƏRBAYCANDA DAYANIQLI TURİZM MƏDƏNİYYƏTİNİN MÖVCUD VƏZİYYƏTİ.................................................16
2.1. Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin formalaşmasının əsas amilləri...............................................................................................16
2.2. Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin inkişafına maneə olan amillərin analizi...........................................................................20
III FƏSİL. AZƏRBAYCANDA DAYANIQLI TURİZMİN İNKİŞAFININ GƏLƏCƏK PERSPEKTİVLƏRİ........................................................................20
3.1. Azərbaycanda dayanıqlı turizmin inkişafı üçün infrastrukturun formalaşması.......................................................................................28
3.2. Azərbaycanda dayanıqlı turizmin inkişafında təhsil və ictimai maarifləndirmə siyasətinin tətbiqi ......................................................31
3.3. Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin formalaşması problemlərinin həlli yolları…………………………………………...40
NƏTİCƏ..................................................................................................47
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.........................................48
ƏLAVƏ 1.................................................................................................52

# Giriş

Azərbaycanda turizmin inkişafı ölkənin iqtisadiyyatında mühüm rol oynayan sahələrdən birinə çevrilmişdir. Zəngin təbii ehtiyatlar, qədim mədəni irs və əlverişli coğrafi mövqe bu sahənin potensialını artıran əsas amillərdir. Turizmin nəzəri və konseptual əsaslarının formalaşdırılması, dayanıqlı turizm mədəniyyətinin inkişaf etdirilməsi və bu istiqamətdə atılan addımlar ölkənin turizm sektorunun davamlı inkişafını təmin etməkdədir.

Turizmin nəzəri və konseptual əsasları, onun iqtisadi və sosial əhəmiyyəti, turizm məhsullarının və xidmətlərinin mahiyyəti kimi məsələlər bu sahənin elmi əsaslarla inkişafını təmin edir. Bu yanaşma, turizmin yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də mədəniyyətin, sosial rifahın və ətraf mühitin qorunmasının vacib elementi olduğunu göstərir.

Dayanıqlı turizm mədəniyyətinin mövcud vəziyyəti isə bir sıra çağırışlarla qarşı-qarşıyadır. Ətraf mühitin qorunması, mədəni irsin saxlanılması və yerli icmaların rifahının artırılması kimi məsələlər dayanıqlı turizmin əsas prioritetləri arasında yer alır. Bu istiqamətdə, turizm fəaliyyətlərinin planlaşdırılması və həyata keçirilməsi zamanı ekoloji və sosial təsirlərin nəzərə alınması vacibdir.

**Mövzunun aktuallığı:** Qlobal miqyasda turizm sektoru iqtisadiyyatın mühüm sahələrindən biri kimi çıxış edir. Azərbaycanda isə turizmin inkişafı qeyri-neft sektorunun şaxələndirilməsi və regionların sosial-iqtisadi inkişafının təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir. Ölkənin zəngin təbii, tarixi və mədəni irsi dayanıqlı turizmin inkişafı üçün geniş imkanlar yaradır. Bununla yanaşı, dayanıqlı turizm mədəniyyətinin formalaşdırılması cəmiyyətin rifahının artırılması və ekoloji balansın qorunması baxımından da vacibdir. Bu vəziyyət dayanıqlı turizmin irəliləməsini təmin etmək üçün əsas tərəflərin – dövlət, təhsil müəssisələri, turistlər, sahibkarlar, yerli əhali və qeyri-hökumət təşkilatlarının bir araya toplanmasının zərurəti yaradır. Bilavasitə bu yanaşma turizm sahəsinin davamlı inkişafına, öz növbəsində dayanıqlı turizmin inkisafını hədəfləyir. Beləliklə birgə əməkdaşlıq və bu əməkdaşlığın nəticəsində görülən tədbirlər, Azərbaycanda

dayanıqlı turizm anlayışının tətbiqinə təkan verəcək, həm də ölkənin turizm sahəsinin gələcək tendensiyalarına öz tövhəsini verəcəkdir.

**Mövzunun öyrənilmə səviyyəsi:** Azərbaycanda turizmin nəzəri və praktiki aspektləri üzrə müxtəlif tədqiqatlar aparılmışdır. Lakin dayanıqlı turizm mədəniyyətinin formalaşması və bu sahədəki mövcud vəziyyətin kompleks şəkildə araşdırılması hələ də geniş tədqiqat obyektinə çevrilməmişdir. Bu sahədəki boşluqların doldurulması üçün ətraflı və sistemli tədqiqatlara ehtiyac vardır.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti - Azərbaycanda turizm sektorunun dayanıqlı inkişafı və bu prosesdə mədəniyyətin rolu müəyyənləşdirilmişdir. **Tədqiqatın predmeti** dayanıqlı turizm mədəniyyətinin formalaşmasına təsir edən sosial, iqtisadi və ekoloji amillərdir.

**Tədqiqatın məqsədi və vəzifələri:** Bu dissertasiya işinin əsas məqsədi Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin mövcud vəziyyətini təhlil etmək, onun formalaşmasına təsir edən amilləri müəyyənləşdirmək və bu sahədə inkişaf istiqamətlərini təklif etməkdir. Bununla yanaşı dayanıqlı turizmin iqtisadi,sosial və ekoloji baxımdan necə tərəqqi edəcəyini göstərmək və hər bir iştirakçının bu sferadakı öhdəliklərini qəbul etməyə və müvafiq tədbirlər görməyə təşviq etməkdir.

**Tədqiqatın vəzifələri:**

1. Dayanıqlı turizm anlayışının ictimaiyyət tərəfindən necə qəbul edildiyini və dəyərləndirildiyini müəyyənləşdirmək.
2. Respondentlərin demoqrafik xüsusiyyətləri ilə dayanıqlı turizmə münasibətləri arasındakı fərqlilikləri təhlil etmək.
3. Dayanıqlı turizmlə bağlı seçilmiş suallar arasında statistik asılılıq və əlaqəni müəyyənləşdirmək.
4. Əldə olunan nəticələrə əsaslanaraq dayanıqlı turizmin inkişafı üçün tövsiyələr irəli sürmək.

**Tədqiqatın metodologiyası:** Buraxılış işində statistik məlumatlar və göstəricilərdən geniş şəkildə istifadə olunmuş, eləcə də Azərbaycanda əhalinin dayanıqlı turizmə olan münasibətini qiymətləndirmək məqsədilə hazırlanmış 16 sualdan ibarət anket əsasında tədqiqat aparılmışdır. Anket sualları Likert şkalası üzrə

(1–5) kodlaşdırılmışdır: "Heç razı deyiləm" (1) – "Tam razıyam" (5). Tədqiqat çərçivəsində anket 250 respondent tərəfindən cavablandırılmışdır. Toplanan məlumatlara əsasən təsviredici statistik göstəricilər hesablanmış, faktor analizləri həyata keçirilmişdir. Eyni zamanda, bəzi suallar arasında əlaqəni müəyyən etmək üçün regresiya modellərindən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycanda dayanıqlı turizmə ictimai münasibət ilk dəfə olaraq empirik anket məlumatları əsasında sistemli şəkildə qiymətləndirilmişdir. Likert şkalası əsasında toplanmış cavablar üzərində aparılan regresiya analizləri vasitəsilə əhalinin müxtəlif sosial-demoqrafik qruplar üzrə münasibətləri müqayisəli şəkildə araşdırılmışdır. Tədqiqat nəticəsində dayanıqlı turizmə maraq və iştirak səviyyəsinə dair yeni statistik meyillər müəyyən edilmişdir. Eyni zamanda, əldə olunan nəticələr dayanıqlı turizmlə bağlı maarifləndirmə və dövlət siyasətinin formalaşdırılmasında elmi cəhətdən əsaslı tövsiyələrin verilməsinə imkan yaratmışdır.

**Tədqiqatın informasiya bazası:** Buraxılış işi hazırlanarkən Dünya İqtisadi Forumunun Turizm və Səyahət İnkişaf İndeksi, Ümumdünya Turizm Təşkilatının nəşrləri, Dövlət Statistika Komitəsinin məcmuələri, dayanıqlı turizmə aid yazılmış elmi ədəbiyyatlar və məqalələrdən istifadə edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti**: Tədqiqat nəticələri Azərbaycanda turizm siyasətinin formalaşdırılması və dayanıqlı turizm mədəniyyətinin inkişaf etdirilməsi üçün praktiki tövsiyələr və tətbiq oluna biləcək mümkün tədbirləri təqdim edir. Bu tövsiyələr dövlət qurumları, turizm təşkilatları və digər maraqlı tərəflər üçün faydalı ola bilər.

**Tədqiqat işinin strukturu:** Buraxılış işi girişdən, 3 fəsildən, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsil 3 yarımbaşlıqdan, ikinci fəsil 3, üçüncü fəsil 2 yarımbaşlıqdan ibarətdir.

# FƏSİL I. DAYANIQLI TURİZM ANLAYIŞININ NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

## 1.1 Dayanıqlı turizm anlayışının nəzəri əsasları

Daima dəyişən və yenilənən dünya sivilizasiyası mütəmadi olaraq yeni inkişaf meyillərini ölkələrə, əhali davranışlarına, müəssisə və təşkilatlara diqtə edir. Tarix boyu insanların müəyyən ehtiyaclarına çevrilmiş turizm XX əsrdən sonra artıq zəruri ehtiyaclara çevrilmişdir. Çevik, dinamik, rəngarəng, aktiv, yeniliklərə asanlıqla adaptasiya olan turizm sahəsi XX əsrdən formalaşan “dayanıqlı inkişaf” anlayışını özünə inteqrasiya edərək “dayanıqlı”, “davamlı” turizm terminlərini iqtisadi ədəbiyyatlara daxil etmişdir. Dayanıqlı turizm ekologiyanın qorunması, yerli cəmiyyətlərin rifahı və iqtisadi inkişafın təmin edilməsi məqsədini güdən bir yanaşmadır. Bu anlayış, turizmin gələcək nəsillər üçün mümkün qədər az mənfi təsir göstərməsini və yerli mədəniyyətlərin və resursların qorunmasını ön planda tutur. Dayanıqlı turizmin əsas məqsədi, təbii mühitin və yerli əhalinin rifahını qoruyaraq turizmin inkişafını davam etdirməkdir (El-Khadrawy, R. 2020). Bu anlayış ilk dəfə 1987-ci ildə Brundtland Komissiyasının “Ortaq Gələcəyimiz” (Our Common Future) adlı hesabatında ifadə olunan “davamlı inkişaf” prinsipinə əsaslanır və turizm sektorunda tətbiq olunan versiyası olaraq inkişaf etdirilmişdir. Davamlı turizmin əsas fəlsəfəsi belədir: “Turizm inkişaf etməlidir, lakin ekosistemlərin və cəmiyyətlərin daşıma qabiliyyətini aşmadan.” Davamlı turizmin qlobal miqyasda inkişaf tarixləri illəri ilə birlikdə əsas hədəf və məzmun göstərilməklə Cədvəl 1-də qeyd olunmuşdur.

**Cədvəl 1. Qlobal miqyasda davamlılıq konsepsiyasının inkişafı**

| Qlobal miqyasda inkişaf | Tarix | Məzmunu |
|---|---|---|
| **Birləşmiş Millətlər Stokholm konfransı** | 1972 | Ətraf mühitin mühafizəsi və inkişafı, davamlılıq şüuru |
| **Bruntland hesabatı** | 1987 | Davamlılıq və dayanıqlı inkişaf |
| **Rio BMT-nin ətraf mühit və inkişaf konfransı** | 1992 | Gündəlik 21 Fəaliyyət Planı Beynəlxalq əməkdaşlıq |
| **Rio+10 Dünya Ətraf Mühitin İnkişafı Sammiti** | 2002 | 10 illik balans hesabatı və milli davamlı inkişaf strategiyalarının yaradılması |

| | | |
|---|---|---|
| **Rio+20 Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Konfransı** | 2012 | Yaşıl artım və qlobal miqyasdan yerli miqyasda davamlı inkişaf şüurunun yaradılması |

**Mənbə:** Ertuğrul, 2018, s.8

Cədvəl 1.1də göründüyü kimi qlobal səviyyədə davamlılıq anlayışı 1970-ci illərdən etibarən ətraf mühitin mühafizəsi və sosial-iqtisadi inkişafın balanslaşdırılması üzərində qurulmuşdur. 1972-ci ildə Stokholm konfransı davamlılıq və ekoloji şüurun formalaşmasına təkan vermiş, 1987-ci ildə Bruntland hesabatı dayanıqlı inkişafın əsas prinsiplərini müəyyənləşdirmişdir. 1992-ci ildə Rio konfransı beynəlxalq əməkdaşlıq və fəaliyyət planı ilə bu istiqamətdə vacib addımlar atmış, 2002 və 2012-ci illərdə keçirilən Rio sammitləri isə davamlı inkişaf strategiyalarının milli və qlobal səviyyədə tətbiqini və yaşıl artımın təşviqini vurğulamışdır. Bu proseslər qlobal miqyasda davamlılıq konsepsiyasının inkişafını sistemləşdirərək, həm yerli, həm də beynəlxalq səviyyədə ətraf mühit və sosial-iqtisadi amillərin harmonik şəkildə qorunmasına xidmət etmişdir **(**Mihalic, T., Mohamadi, S., Abbasi, A., & Dávid, L. D. 2021).

Ümumdünya Turizm Təşkilatına (UNWTO) görə davamlı turizm Şəkil 1.1-dəki xüsusiyyətlərlə fərqlənir:

**Şəkil 1.1. Ümumdünya Turizm Təşkilatına (UNWTO) görə davamlı turizm xüsusiyyətləri**

- Ətraf mühitin qorunmasını təmin edir;
- Mədəni irsi və yerli dəyərləri saxlayır;
- Yerli icmaların iqtisadi rifahına töhfə verir;
- Turist məmnuniyyətini və təcrübə keyfiyyətini artırır

**Mənbə:** (UNWTO, 2020).

Dayanıqlı turizmin əsas məqsədləri turizmin ətraf mühitə və iqtisadiyyata təsirini dərk etmək, inkişafda bərabərliyi təmin etmək, ev sahibi cəmiyyətin həyat səviyyəsini yaxşılaşdırmaq, yüksək keyfiyyətli xidmət göstərmək, turizm işçiləri və yerli icmanın hüquqlarını qorumaq, ziyarətçilərə keyfiyyətli təcrübə təqdim etmək və gələcək nəsillər üçün təbii, tarixi və mədəni dəyərləri qoruyub saxlamaqdır.

Destinasiyalarda dayanıqlı turizm strategiyalarının məqsədi dayanıqlı inkişaf prinsipləri əsasında turist sayını artırmaq, iqtisadi inkişafı dəstəkləmək və ekoloji dəyərləri qorumaqdır. BMT-nin Ətraf Mühit Proqramı (UNEP) isə davamlı turizmin 12 əsas məqsədini müəyyən etmişdir.Qeyd olunan 12 məqsəd cədvəl 1.2-də öz əksini tapır.

**Cədvəl 1.2. BMT-nin Ətraf Mühit Proqramı (UNEP) görə davamlı turizmin 12 əsas məqsədi**

| № | Məqsəd | Təsviri |
|---|---|---|
| 1 | İqtisadi Davamlılıq | Turizm istiqamətləri və müəssisələrin uzunmüddətli davamlılığını və rəqabət qabiliyyətini təmin etmək. |
| 2 | Yerli rifah | Ziyarətçilərin yerli xərcləməsini artırmaqla turizmin ev sahibi destinasiyaya töhfəsini maksimuma çatdırmaq. |
| 3 | Məşğulluğun Keyfiyyəti | Ayrı-seçkiliyə yol vermədən yerli məşğulluğun sayını və keyfiyyətini artırmaq, əmək haqqı və xidmət səviyyəsini yaxşılaşdırmaq. |
| 4 | Sosial Bərabərlik | Turizmdən əldə edilən iqtisadi və sosial faydaların ədalətli bölüşdürülməsini təmin etmək. |
| 5 | Ziyarətçi Məmnuniyyəti | Bütün ziyarətçilərə ayrı-seçkilik etmədən təhlükəsiz və məmnunedici təcrübə təmin etmək. |
| 6 | Yerli Nəzarət | Yerli özünüidarə orqanlarının turizmin planlaşdırılması və idarə olunmasında səlahiyyətlərini artırmaq. |
| 7 | Sosial Rifah | Yerli əhalinin sosial strukturunun və həyat keyfiyyətinin qorunması və yaxşılaşdırılması. |
| 8 | Mədəni zənginlik | Yerli mədəniyyətə, ənənəyə və tarixi irsə hörmət etmək və onları gücləndirmək. |
| 9 | Fiziki Tamlıq, Bütövlük | Şəhər və kənd yerlərinin fiziki və vizual keyfiyyətinin qorunması və yaxşılaşdırılması. |
| 10 | Biomüxtəliflik | Təbii ərazilərin, yaşayış mühitinin və vəhşi təbiətin qorunması, zərərin minimuma endirilməsi. |
| 11 | Resurs Effektivliyi | Məhdud və bərpa olunmayan resurslardan istifadənin minimuma endirilməsi. |
| 12 | Ətraf Mühitin Təmizliyi | Hava, su və torpağın çirklənməsinin və tullantıların əmələ gəlməsinin minimuma endirilməsi. |

Mənbə: BMT-nin Ətraf Mühit Proqramı (UNEP) sənədinə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Ümumilikdə turizm sektorunun tənzimlənməsinə dair, daha çox nəyin üzərinə fokuslanmasından asılı olaraq 5 müxtəlif yanaşma strategiyaları - model vardır: "Busterizm", "İqtisadi yanaşma", "Fiziki-ərazi yönümlü yanaşma", "İctimai yanaşma" və "Dayanıqlı yanaşma" (Kərimov, 2018).

**Cədvəl 1.3. Turizm sektorunun tənzimlənməsinə dair yanaşma strategiyaları**

| Yanaşma | Əsas Məğzi | Üstünlükləri | Zəif Cəhətləri |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| **Busterizm** | Turizmin hər halda yerli iqtisadiyyata faydalı olması | Turistlərin sayını artırmaq prioritetdir | Yerli sakinlərin fikri nəzərə alınmır; ekoloji problemlər yaranır |
| **İqtisadi yanaşma** | Turizmi iqtisadi inkişaf vasitəsi kimi qiymətləndirir | İşsizlik azalır, büdcə gəlirləri artır | Sosial və ekoloji təsirlər nəzərə alınmır |
| **Fiziki-ərazi yönümlü** | Ərazinin coğrafi və fiziki xüsusiyyətlərinə uyğun tənzimləmə | Ətraf mühit qorunur, resursların səmərəli istifadəsi | İnfrastruktur məhdudluğu; tələbi tam ödəyə bilməməsi |
| **İctimai yanaşma** | Yerli cəmiyyətin fikri əsas götürülür, gəlirlərin ədalətli bölüşdürülməsi | Mədəni və təbii sərvətlər qorunur, sosial ədalət təmin edilir | İxtisaslı kadr çatışmazlığı |
| **Dayanıqlı yanaşma** | Sosial, iqtisadi və ekoloji amillər nəzərə alınır | Sektorun uzunmüddətli və balanslı inkişafı | N/A (ümumi yanaşma) |

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 1.3-də qeyd olunan turizm inkişaf modellərinin hər biri özünəməxsus üstünlüklər və çatışmazlıqlara malikdir. “Busterizm” və “İqtisadi” yanaşma daha çox iqtisadi mənfəətə fokuslanır, lakin sosial və ekoloji aspektləri nəzərə almır. “Fiziki-ərazi yönümlü” və “İctimai” yanaşma ətraf mühitin qorunması və yerli cəmiyyətin iştirakına önəm verir, lakin infrastruktur və kadr çatışmazlığı problemləri ilə üzləşir. Ən tam və effektiv yanaşma isə Dayanıqlı yanaşmadır, çünki o, sosial, iqtisadi və ekoloji amilləri tarazlaşdıraraq uzunmüddətli və davamlı turizm inkişafını təmin edir (Kərimov, 2018).

Dayanıqlı turizm fəaliyyətləri təbiətə və ekosistemlərə minimal təsir göstərməyi, təbii resursların davamlı istifadəsini və biomüxtəlifliyin qorunmasını hədəfləyir. Dayanıqlı turizmin idarəedilməsi və təşkilatçılığı həm ekoloji, həm sosial, həm də iqtisadi məqsədləri nəzərə alaraq, bütün maraqlı tərəflərin iştirakı ilə həyata keçirilir. Mədəniyyət və tarixi irsin qorunması da bu modelin mühüm hissəsidir, bu da yerli icmaların sosial və mədəni inkişafına dəstək olur (Yoshioka, H., 2024; Serio və digərləri, 2025).

Beləliklə, dayanıqlı turizm təbiətin, yerli cəmiyyətin və iqtisadiyyatın uzunmüddətli davamlılığını təmin edən kompleks yanaşmadır.

## 1.2 Dayanıqlı turizmin iqtisadi və sosial əhəmiyyəti

Son illərdə turizm sahəsində dayanıqlı inkişafın əhəmiyyəti daha da artır və bu, sadəcə ekoloji aspektlərlə deyil, həm də sosial və iqtisadi tərəflərlə əlaqədar olan bir yanaşmadır. Dayanıqlı turizm mədəniyyəti, təbiətə və mədəni irsə olan təsirinin azaldılması, yerli icmaların rifahının artırılması və gələcək nəsillərə təmiz və bərpa oluna bilən turizm resurslarının təqdim edilməsi məqsədini güdür.

**Cədvəl 1.4. Dayanıqlı Turizmin Təsirləri və Faydaları**

| Turizm Növü | Ekoloji Təsirlər | Sosial Təsirlər | İqtisadi Təsirlər |
|---|---|---|---|
| **Ekoturizm** | Təbiətə zərər verməmək, ekosistemi qorumaq | Yerli icmalarla əməkdaşlıq, mədəniyyətin qorunması | Yeni iş imkanları, yerli məhsulların bazara çıxarılması |
| **Mədəniyyət Turizmi** | Tarixi və mədəni irsin qorunması | Yerli ənənələrin qorunması və təbliği | Yerli iqtisadiyyata fayda, mədəniyyət məhsullarının satışı |
| **Yaşıl Sertifikatlaşdırma** | Ekoloji davamlılıq, təbiətə uyğunluq | Yerli icmaların təbii resurslardan məsuliyyətli istifadəsi | Ekoloji turizm fəaliyyətlərinə dəstək, yeni bazar imkanları |

**Mənbə:** https://azerbaijan.travel/sustainable-tourism-strategyaz

Dayanıqlı turizmin təsirləri və faydaları ekoloji, sosial və iqtisadi dayanıqlılıq prinsipləri ilə sıx bağlıdır. Bu yanaşma təbii sərvətlərin qorunmasını, yerli icmaların sosial rifahının artırılmasını və iqtisadi inkişafın davamlı şəkildə dəstəklənməsini hədəfləyir. Ekoturizm, ən yüksək iştirakçı sayı və gəlirlə fərqlənərək, təbiətə minimal təsir göstərmək və ekosistemləri qorumaq məqsədilə fəaliyyət göstərir. Bu sahə, həmçinin yerli mədəniyyətlərin qorunmasına və iqtisadi imkanların genişlənməsinə töhfə verir. Mədəniyyət turizmi isə yerli ənənələrin və mədəni irsin təbliği ilə sosial və iqtisadi təsirlər yaradır, turistlərin yerli mədəniyyətlərlə tanışlığını təmin edir. Sosial məsuliyyətə əsaslanan məsuliyyətli turizm, yerli icmalarla əməkdaşlıqda etik prinsiplərlə idarə olunur və onların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir. Yaşıl sertifikatlaşdırma isə ekoloji davamlılığı təmin edən sertifikatlarla təbii sərvətlərin qorunmasına və məsuliyyətin artmasına yönəlib, gələcəkdə bu sahənin genişlənmə potensialı mövcuddur.

İqtisadi dayanıqlıq aspektində dayanıqlı inkişafın əsas prinsipləri millətlər və nəsillər arasında ədalət və bərabərliyin təmin edilməsini, resursların səmərəli istifadəsini və xərclərin ədalətli bölüşdürülməsini ehtiva edir. Bu çərçivədə yerli

iqtisadiyyatın dəstəklənməsi və etik istehlakın təşviqi vacib rol oynayır. Sosial dayanıqlılıq isə insanların həyat keyfiyyətinin yüksəldilməsi, sosial ədalətin təminatı, mədəni və sosial birliyin qorunması, həmçinin gender bərabərliyinin və təhsil-səhiyyə imkanlarının bərabər şəkildə təminatı kimi məsələləri önə çəkir. Xüsusilə təhsil sahəsinin inkişafı insan kapitalının yüksəlməsinə gətirib çıxarır ki, bu da hüquqi, siyasi və ictimai məsuliyyətlərin yerinə yetirilməsində, sosial bərabərsizliyin azaldılmasında mühüm rol oynayır.

Sosial-iqtisadi aspektlərin səmərəliliyinin artırılması məsələsinə diqqət yetirərkən, ətraf mühitlə bağlı aspektlərin arxa plana keçməsi düzgün deyil. Ətraf mühit məsələləri iqtisadi və sosial sahələrlə sıx bağlıdır və bu əlaqələr kompleks şəkildə bir-birini təsir edir. Gələcək nəsillərin ehtiyaclarını nəzərə alaraq, təbii resursların davamlı və balanslı istifadəsi dayanıqlı inkişafın əsas prinsiplərindən biridir. Ətraf mühitin istismarı zamanı balansın pozulması həm iqtisadi, həm də sosial sahələrdə ciddi problemlərə yol açır. İnsanların sağlamlığı, həyat keyfiyyəti, sosial rifahı və fəaliyyət imkanları ətraf mühitin vəziyyətindən birbaşa və dolayı olaraq təsirlənir. Bu aspektlər sosial və iqtisadi inkişafla qarşılıqlı əlaqədədir və onların harmonik inkişafı üçün bir sıra prinsiplər tətbiq edilməlidir:

- İqtisadi dayanıqlılıq: Resursların səmərəli istifadəsi ilə istehsalın təşkili, istehsal prosesində ətraf mühitə minimal zərərin vurulması və etik istehlak mədəniyyətinin inkişaf etdirilməsi vacibdir.
- Dayanıqlı inkişaf: İqtisadi artım sosial bərabərsizliyi azaltmalı, ekoloji balansı qorumaqla yanaşı sosial ədalətin təmin olunmasına yönəlməlidir.
- Təbii kapitalın qorunması: Nəsillərarası ədalətin təmin olunması üçün təbii sərvətlər saxlanmalı və iqtisadi sistemlər təbii kapitala zərər vermədən fəaliyyət göstərməlidir. Bu məqsədlə bazar mexanizmlərinə sosial müdaxilə zəruridir.
- Ekoloji məhdudiyyətlər: Əhalinin istehlakı və resurs tələbləri məhdudlaşdırılmalı, ekosistemlərin bütövlüyü qorunmalıdır.

- Sosial bərabərlik və vətəndaş məsuliyyəti: Sağlamlıq, təhsil və siyasi məsuliyyət kimi sosial amillər iqtisadi və ekoloji proseslərlə uzlaşdırılmalı, sistemin dayanıqlı inteqrasiyası təmin edilməlidir.

Yüksək inkişaf etmiş ölkələrin iqtisadi inkişaf modellərində bu prinsiplərin tətbiqi ənənəvi iqtisadi yanaşmadan fərqli olaraq, daha kompleks və dayanıqlı inkişaf strategiyalarına doğru istiqamətlənməni təmin etmişdir. Ənənəvi iqtisadi inkişaf modelləri isə, xüsusilə zəif inkişaf etmiş ölkələrdə sosial və ekoloji aspektləri yetərincə nəzərə almadığından, inkişaf fərqlərinin kəskinləşməsinə səbəb olur. Bu fərqlərin aradan qaldırılması isə beynəlxalq səviyyədə prioritet məsələdir. Dayanıqlı inkişaf prinsiplərinə riayət edilməklə resursların sərfiyyatı balanslaşdırılır və uzunmüddətli iqtisadi artım təmin olunur.

**Qrafik 1.1: Dayanıqlı Turizmin İqtisadi və Sosial Təsirinin Statistik Dinamikası (2015–2023)**




**Mənbə:** https://www.unwto.org

Qrafik 1.1 2015–2023-cü illər üzrə dayanıqlı turizmin iqtisadi və sosial göstəricilərini göstərir. Dayanıqlı turizm layihələrinin sayı 120-dən 390-a, turizmdə məşğulluq 2.1%-dən 5.2%-ə, ümumi gəlir isə 500 milyon dollardan 1100 milyon dollara yüksəlib. Bu artımlar dövlət və özəl sektorun dayanıqlı turizmə marağını, yeni iş yerlərinin yaranmasını və iqtisadi səmərənin artmasını əks etdirir. Qrafik dayanıqlı turizmin iqtisadi və sosial baxımdan əhəmiyyətini vurğulayır və siyasətlərin davamlılığını zəruri edir.

### 1.3. Dayanıqlı turizm mədəniyyətinin nəzəri əsasları

Dayanıqlı turizm mədəniyyəti turizm fəaliyyətlərinin ekoloji, sosial və iqtisadi baxımdan uyğun inkişafını təmin edən yanaşmadır (Leyva və digərləri, 2024). Bu nəzəriyyə, mədəni irsin qorunması və təşviqinin turizm vasitəsilə həyata keçirilməsinin vacibliyini vurğulayır və yerli ənənələrin qorunmasına, turistlərin yerli mədəniyyətə hörmət etməsinə önəm verir.

Bu yanaşma etik prinsiplərin tətbiqini tələb edir, turistlərin məsuliyyətli və ekoloji şüurlu davranmasını təşviq edir və yerli icmaların turizmdən uzunmüddətli fayda görməsini təmin edir (World Bank, 2021). Dayanıqlı turizm mədəniyyəti ekoloji dayanıqlılığı, sosial və iqtisadi rifahı qorumağa yönəlir (Banerjee və digərləri, 2024).

Turizm gəlirlərinin yerli icmalar arasında paylaşılması onların həyat şəraitini yaxşılaşdırır və mədəniyyətlərin qorunmasına kömək edir. Bu yanaşma həm təbiətə, həm də mədəniyyətə hörmətlə yanaşmanı artırır və etik davranışı təşviq edir. Dayanıqlı turizmin inkişafı bir sıra çətinliklərlə qarşılaşsa da, davamlı idarəetmə və strategiyalarla bu problemlər aradan qaldırıla bilər (Rozzi və digərləri, 2008).

Dayanıqlı turizm mədəniyyəti təkcə hökumətlər və turizm sənayesi üçün deyil, həm də fərdi turistlər üçün məsuliyyət yaradır. Turistlər səfərləri zamanı yerli mədəniyyətə hörmət göstərməli, təbii mühiti qorumağa səy göstərməli və tullantıları düzgün idarə etməlidirlər. Bununla yanaşı, turizm şirkətləri və yerli icmalar da dayanıqlı turizm mədəniyyətini inkişaf etdirmək üçün birgə səylər göstərməlidirlər.

Dayanıqlı turizm mədəniyyəti yalnız turizm sektorunun inkişafını deyil, həm də qlobal miqyasda mədəniyyətlərin və təbii mühitin qorunmasını təmin edən bir yanaşmadır. Bu konsepsiya davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində mühüm bir alət kimi çıxış edir və turizm sahəsində gələcək nəsillərə daha sağlam və balanslı bir miras buraxmağa imkan verir. Dayanıqlı turizm mədəniyyətinin inkişafı üçün beynəlxalq təşkilatlar, milli hökumətlər və yerli icmalar arasında koordinasiya və əməkdaşlıq vacibdir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Dayanıqlı İnkişaf Məqsədləri (SDG) çərçivəsində turizm sektorunun dayanıqlılığına xüsusi diqqət yetirilmişdir. Xüsusilə, 2030-cu il Gündəliyinin 8-ci (Layiqli iş və iqtisadi artım),

12-ci (Məsuliyyətli istehlak və istehsal) və 14-cü (Dəniz ekosistemlərinin qorunması) məqsədləri turizm sahəsində dayanıqlığın artırılmasına istiqamətlənmişdir. Bu məqsədlər, turizmin ekoloji izinin azaldılması, yerli icmaların iqtisadi rifahının təmin edilməsi və təbii resursların davamlı istifadəsini təşviq edir (İspəndiyarov, İ. T. 2024).

Dayanıqlı turizm mədəniyyətinin nəzəri əsasları və onların funksiyaları ətraflı şəkildə Cədvəl 1.5-də təqdim olunmuşdur. Hər prinsip turizmin davamlı inkişafını təmin etmək üçün müxtəlif sahələri — iqtisadi, sosial-mədəni və ekoloji istiqamətləri əhatə edir. Cədvəldə həmçinin hər bir prinsipin əsas məqsədləri və real həyata keçirilən nümunələr göstərilmişdir. Bu, dayanıqlı turizmin müxtəlif aspektlərinin necə tətbiq olunduğunu və onun cəmiyyət üçün əhəmiyyətini aydın şəkildə nümayiş etdirir.

**Cədvəl 1.5. Dayanıqlı Turizm Mədəniyyətinin Nəzəri Əsasları**

| Əsas Prinsip | Təsviri | Əsas Məqsədlər | Nümunələr |
|---|---|---|---|
| **İqtisadi davamlılıq** | Turizm fəaliyyətlərinin yerli icmalar üçün iqtisadi fayda yaratması | Yerli məşğulluğun artırılması, gəlirlərin ədalətli bölgüsü | Yerli məhsulların satışının təşviqi, icma əsaslı turizm |
| **Sosial-Mədəni davamlılıq** | Yerli mədəni irsin qorunması və turistlər arasında qarşılıqlı hörmət | Mədəni irsin təbliği, yerli ənənələrin qorunması | Mədəni festivalların təşkil olunması, yerli sənətkarlıq məhsulları |
| **Ekoloji davamlılıq** | Təbii resursların mühafizəsi və ətraf mühitə zərərin azaldılması | Tullantıların azaldılması, təbii mühitin qorunması | Enerji səmərəli otellər, plastik istifadəsinin minimuma endirilməsi |
| **Maarifləndirmə və təlim** | Turistlərin və turizm işçilərinin davamlı davranışlar barədə məlumatlandırılması | Məsuliyyətli turizm davranışının təşviqi, təlim proqramları | Turistlər üçün məlumatlandırıcı təlimat lövhələri, eko-turlar |
| **Rəqəmsal texnologiyalar** | Dayanıqlı turizmin təşviqi üçün rəqəmsal həllərin tətbiqi | Ekoloji marşrutların tanıdılması, enerji səmərəliliyinin artırılması | Mobil tətbiqlər vasitəsilə ekoloji məlumatların paylanması |
| **Hüquqi tənzimlənmə** | Davamlı turizmin təmin olunması üçün dövlət və beynəlxalq qaydalar | Ekoloji vergilər, sertifikatlaşdırma, hüquqi tənzimləmələr | Ekoloji sertifikatlı otellər, plastik istifadəsinə məhdudiyyətlər |

**Mənbə**: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 1.5 dayanıqlı turizm mədəniyyətinin nəzəri əsaslarını və əsas prinsiplərini ətraflı şəkildə təqdim edir. İqtisadi davamlılıq turizm fəaliyyətlərinin

yerli icmalar üçün iqtisadi fayda yaratmasını, xüsusilə yerli məşğulluğun artırılması və gəlirlərin ədalətli bölgüsünü hədəfləyir. Sosial-mədəni davamlılıq isə yerli mədəni irsin qorunması və turistlər arasında qarşılıqlı hörmətin təşviqi ilə bağlıdır. Ekoloji davamlılıq təbii resursların mühafizəsi və ətraf mühitə zərərin minimuma endirilməsini əsas götürür. Maarifləndirmə və təlim prinsipi turistlər və turizm işçilərinin davamlı davranışlar barədə məlumatlandırılmasını təmin edir. Rəqəmsal texnologiyalar dayanıqlı turizmin təşviqi üçün innovativ həllər təqdim edir, məsələn, mobil tətbiqlər vasitəsilə ekoloji məlumatların paylaşılması. Hüquqi-tənzimləyici çərçivə isə davamlı turizmin təmin olunması üçün dövlət və beynəlxalq səviyyədə ekoloji vergilər, sertifikatlaşdırma və hüquqi tənzimləmələr kimi mexanizmləri əhatə edir. Bu prinsiplər dayanıqlı turizmin həm ekoloji, həm iqtisadi, həm də sosial aspektlərini balanslı şəkildə inkişaf etdirməyə yönəlib.

# FƏSİL II. AZƏRBAYCANDA DAYANIQLI TURİZM MƏDƏNİYYƏTİNİN MÖVCUD VƏZİYYƏTİError! Bookmark not defined.

## 2.1 Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin formalaşmasının əsas amilləri

Azərbaycan coğrafi mövqeyi, zəngin tarixi və mədəni irsi, eləcə də təbii gözəllikləri ilə turizm sahəsində böyük potensiala malikdir. Xəzər dənizinin sahilində yerləşməsi, müxtəlif iqlim şəraiti və dağlıq əraziləri ölkəyə həm yay, həm də qış turizmi üçün əlverişli imkanlar yaradır. Tarixi abidələr, qədim şəhərlər və milli ənənələr Azərbaycanın beynəlxalq turizm bazarında cəlbedici istiqamətlərdən biri olmasına səbəb olur.

Son illərdə ölkədə turizmin inkişafı prioritet istiqamət kimi müəyyən edilərək, dövlət tərəfindən strateji sənədlər və proqramlar qəbul edilmişdir. Bu sənədlər turizmin infrastrukturu, institusional bazanı və beynəlxalq əməkdaşlıqlarının gücləndirilməsini, həmçinin dayanıqlı və rəqabətqabiliyyətli inkişafını təmin etməyi hədəfləyir. Məsələn, 2023-2026-cı illər üçün Azərbaycanı Turizm Strategiyası turizm sektorunda əlavə dəyərin artırılmasını nəzərdə tutur.

Qeyd edilən dövlət strategiyasının tərkibində həm daxili turizmin inkişafı, həm də beynəlxalq arenada Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi əsas prioritetlərdəndir. Yerli icmaların təşəbbüsləri, ekoturizm və rəqəmsal texnologiyaların tətbiqi bu sahədə mühüm rol oynayır. Xarici turistlərin cəlbi üçün viza prosedurlarının sadələşdirilməsi, beynəlxalq sərgilərdə iştirak və təbliğat kampaniyalarının genişləndirilməsi kimi tədbirlər həyata keçirilir.

Bütün dünyada turizmin “şok” yaşamasına səbəb olan Covid-19 pandemiyasından sonrakı dövrdə qəbul edilən yeni təhlükəsizlik standartları turizm xidmətlərinin keyfiyyətini artırmaqla yanaşı, ölkənin müsbət beynəlxalq imicinin formalaşmasına da dəstək verir. Ümumilikdə, bu strategiyalar turizm sektorunun davamlı inkişafı, məşğulluğun artması və regional inkişafa töhfə verilməsi baxımından vacib əhəmiyyət kəsb edir. Gələcəkdə innovativ yanaşmaların, rəqəmsal həllərin və dayanıqlı turizm modellərinin tətbiqi Azərbaycanın turizm potensialını daha da gücləndirəcək.

**Cədvəl 2.1. Azərbaycanda Turizm Göstəricilərinin Dinamikası (2018–2023)**

| İl | Xarici turistlərin sayı (milyon nəfər) | Turizmdən gəlir (milyard AZN) |
|---|---|---|
| **2018** | 2.8 | 4.0 |
| **2019** | 3.2 | 4.5 |
| **2020** | 0.85 | 1.2 |
| **2021** | 1.4 | 2.1 |
| **2022** | 2.0 | 3.0 |
| **2023** | 2.5 | 3.8 |

**Mənbə:** https://www.stat.gov.az/source/tourism/

Cədvəl 2.1-də 2018–2023-cü illər ərzində Azərbaycanda xarici turistlərin sayı və turizmdən əldə olunan gəlirin illik dəyişimi əks etdirilmişdir. 2018 və 2019-cu illərdə artım müşahidə olunmuş, müvafiq olaraq turist sayı 2.8 milyondan 3.2 milyona yüksəlmişdir ki, bu da 14% artım deməkdir. Göstərilən zaman müddətində gəlir isə 4 milyarddan 4.5 milyard AZN-ə, faizlə ifadədə isə 12% artımla yüksəlmişdir. 2020-ci ildə Covid-19 pandemiyasının ciddi karantin rejimlərinin nəticəsi olaraq geriləmə baş vermiş, göstəricilər minimum səviyyəyə düşmüşdür. Lakin sonrakı illərdə, xüsusilə 2022 və 2023-cü illərdə bərpa prosesi davam etmiş, turist sayı 2.5 milyona, gəlir isə 3.8 milyard AZN-ə çatmışdır. Bu dinamika turizmin ölkə iqtisadiyyatına təsirini və sektorun bərpasını əyani şəkildə göstərir (İspəndiyarov, 2024). 2024-cü ilin rəsmi statistic məlumatlarına əsasən Azərbaycan ÜDM-da turizm cəmi 2.4% paya sahib olmuşdur. 2016-cı ildən Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilən Qeyri-neft sektoru sahələrinin inkişafına dair Strateji yol xəritəsinin məqsədləri arasında turizm və ictimai iaşə xidmətlərinin inkişafı hədəflənmişdir.

**Cədvəl 2.2. Azərbaycanda Turizm Potensialı və Milli Strategiyaların Strukturu**

| Kateqoriya | Məzmun |
|---|---|
| Təbii Potensial | Xəzər dənizi sahili, dağlıq bölgələr (Şahdağ, Tufandağ), termal su mənbələri |
| Tarixi-Mədəni İrs | Qobustan qayaüstü rəsmləri, İçərişəhər, Şəki Xan Sarayı, Atəşgah |
| Ekoturizm İmkanları | Milli parklar (Hirkan, Şirvan, Zəngəzur), biosfer rezervatları |
| Səhiyyə və Sağlamlıq Turizmi | Naftalan nefti, termal kurortlar (Qalaaltı, İstisu) |
| Kənd və Aqroturizm | Ləkit, Lahıc, Xınalıq kimi kəndlərdə yerli həyat tərzi və kənd təsərrüfatı |
| Qış Turizmi | Qəbələ, Şahdağ və Tufandağ qış-yay turizm kompleksləri |

| | |
|---|---|
| Turizm üzrə Dövlət Strategiyaları | "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2022–2026-cı illər üçün Strategiya", "Dayanıqlı və Rəqabətqabiliyyətli Turizm Sənayesi Konsepsiyası" |
| Rəqəmsallaşma və İnnovasiyalar | "Azərbaycan Turizm Portalı", mobil tətbiqlər, onlayn bilet və rezervasiya sistemləri |
| İnfrastruktur İnkişafı | Yeni hava limanları (Zəngilan, Füzuli), beynəlxalq avtomobil yolları |
| Beynəlxalq Əməkdaşlıq və Brendləşmə | "Experience Azerbaijan", beynəlxalq sərgilərdə iştirak, UNESCO ilə əməkdaşlıq |

**Mənbə:** https://azerbaijan.travel/

Cədvəl 2.2 Azərbaycanın turizm potensialı və bu potensialın reallaşdırılması istiqamətində həyata keçirilən milli strategiyaları ümumiləşdirmişdir. Ölkə Xəzər sahilləri, dağlıq relyefi və müalicəvi termal suları ilə təbii turizm, həmçinin Qobustan, İçərişəhər, Şəki Xan Sarayı kimi abidələri ilə, həmçinin qeyri-maddi mədəni irsi ilə mədəni turizm, münbit torpaqlarında becərilən bitkilərdən aqroturizm və kənd turizminin inkişafı üçün geniş imkanlara malikdir.

Son illərdə Azərbaycanın turizm siyasəti dayanıqlı inkişaf prinsiplərinə əsaslanır. Dövlət Turizm Agentliyinin Qlobal Dayanıqlı Turizm Şurasına üzvlüyü və bu sahədə imzalanan Anlaşma Memorandumu dayanıqlı turizm standartlarının milli səviyyədə tətbiqinə təkan verir.

Bu yanaşma yerli icmaların rifahının artırılması, məşğulluğun genişləndirilməsi, regionlarda infrastrukturun təkmilləşdirilməsi və mədəni irsin qorunması kimi sahələrdə mühüm rol oynayır. Eyni zamanda ekoturizm və aqro-turizm kimi formalar vasitəsilə təbii sərvətlərin qorunması təşviq olunur. Dayanıqlı turizm, Azərbaycanın turizm sektorunun uzunmüddətli və rəqabətqabiliyyətli inkişafı üçün strateji istiqamət kimi qəbul edilir (Yaqubov, S. M. n.d.).

Azərbaycan Respublikasının 2023–2026-cı illəri əhatə edən Turizm İnkişaf Strategiyası turizm əsaslı iqtisadi artımı, keyfiyyətli xidmət göstərilməsini və turizm resurslarının dayanıqlı istifadəsini uzlaşdırmağı hədəfləyir. Bu strategiyada kəmiyyət və keyfiyyət yanaşmalarının balanslaşdırılması və Bakı ilə regionlar arasında inkişaf fərqlərinin azaldılması əsas prinsiplər sırasındadır. Məqsəd – Azərbaycanı həm yerli, həm də xarici turistlər üçün əlçatan, dayanıqlı və yüksəkkeyfiyyətli turizm destinasiyasına çevirməkdir.

Publik hüquqi şəxs kimi fəaliyyət göstərən Qoruqları İdarəetmə Mərkəzi bu strategiyanın icrası çərçivəsində mədəni irsin qorunması və bərpası ilə bağlı mühüm layihələr həyata keçirir. Bu baxımdan, Şəki şəhərində aparılan infrastruktur və bərpa işləri xüsusi qeyd olunmalıdır. 2019-cu ildə Şəkinin tarixi mərkəzi və Xan Sarayı YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş, 2022-ci ildə bu ərazidə genişmiqyaslı bərpa işləri görülmüşdür.

Şəki qədim İpək Yolu üzərində yerləşən tarixi mərkəzlərdən biri olmaqla, zəngin mədəni irsi, kulinariyası, sənətkarlıq ənənələri və təbii gözəllikləri ilə fərqlənir. Tarixən karvansarayları ilə tanınan bu şəhər, bu gün də geniş turizm infrastrukturuna malikdir. Turistlər burada gecələmə, qidalanma, istirahət və əyləncə xidmətlərindən rahatlıqla yararlana bilir. Şəki halvası və piti kimi yerli təamlar, eləcə də kəlağayı və şəbəkə sənəti turistlərə həm kulinariya, həm də mədəniyyət baxımından unikal təcrübələr təqdim edir. Yerli əhalinin turizmə marağı və turizm sahəsində əməkdaşlığa açıq olması bu bölgənin inkişaf potensialını daha da artırır (B. Himmətoğlu və b., 2021).

**Cədvəl 2.3. Ənənəvi destinasiya ilə dayanıqlı destinasiyaların müqayisəli təhlili**

| Ənənəvi destinasiya | Dayanıqlı destinasiya |
|---|---|
| Daha çox iqtisadi cəhətdən qazanc əldə etməyə yönəlir. | Təbiətin və cəmiyyətin gələcəyinə təsir etmədən, yerli icmalara fayda vermək məqsədini güdür. |
| Turistlər üçün təcrübə və əyləncə təmin etmək. | Təbii resursların qorunması və gələcək nəsillər üçün qorunması. |
| Ətraf mühitə və yerli icmalara mənfi təsir göstərə bilər. | Ətraf mühit və yerli icmalar üzərində müsbət təsir yaratmağa çalışır. |
| Resursların həddindən artıq istifadəsi. | Resursların qənaətlə istifadəsi və bərpa olunması. |
| Qısa müddətli iqtisadi fayda təmin edir. | Uzun müddətli iqtisadi fayda və yerli icmaların dəstəklənməsi. |
| Ətraf mühitə çoxlu zərər verə bilər (məsələn, çirklənmə, təbii sərvətlərin tükənməsi). | Ətraf mühitin qorunmasına önəm verir (təbii sərvətlərin qorunması, enerji qənaəti və s.). |
| Adətən turistik attraksionlar və populyar yerlər üzərində fokuslanır. | Yerli mədəniyyətə və ənənələrə hörmət göstərərək daha dərin və ətraflı təcrübələrə yönəlir. |
| Qısa müddətli və çox vaxt tələbatın yüksək olduğu təcrübələrə yönəlir | Planlaşdırma yerli cəmiyyətlər və təbii mühitlə uyğun olaraq həyata keçirilir. |
| Turistlər əsasən şəxsi maraqlara görə qərarlar alır. | Yerli icmalar və ətraf mühitin sağlamlığı da nəzərə alınaraq qərarlar qəbul edilir. |

| | |
|---|---|
| Böyük otellər, kütləvi turizm yerləri və resurslar. | Kiçik miqyaslı, ekoloji təmiz və yerli icmaların tələblərinə uyğun infrastrukturlar. |
| Yerli mədəniyyətin dəyişməsi və təzyiqə məruz qalması. | Yerli mədəniyyətin qorunması və inkişaf etdirilməsi. |

**Mənbə:** B.Himmetoğlu və digərləri, "Turizm destinasiyalarının idarəedilməsi" dərs vəsaitindən əldə olunmuş məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 2.3-də qeyd olunan ənənəvi destinasiya elementləri və hədəf kütlələri tamamilə uyğun şəkildə Azərbaycanı və onun ayrı-ayrı destinasiyalarını əhatə etməsə də, ərazi hal-hazırda ekoloji təmizdir, səs-küy nisbəti aşağıdır, ətraf mühit qorunur, yerli əhali turizmin inkişafında maraqlıdır, alternativ turizm xidmətləri mövcuddur, tarix qorunur, maddi və qeyri-maddi mədəni irsin unudulmasına, milli qastronomiyanın köhnəlməsinə icazə verilmir, tarixi abidələrin aşınmasına icazə verilmir, muzeylər aktuallığını qoruyub saxlayır.

## 2.2 **Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin inkişafına mane olan amillərin analizi**

Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin inkişafı ölkənin təbii, tarixi və mədəni irsinin qorunaraq gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma, həmçinin turizmin iqtisadi, sosial və ekoloji aspektlər üzrə balanslı inkişafının təmin olunması məqsədinə xidmət edir. Bununla belə, dayanıqlı turizmin inkişafında bir sıra sistemli və strateji problemlər müşahidə edilir. Əsas çətinliklər arasında turizm obyektlərində ekoloji normalara tam riayət edilməməsi, yerli icmaların turizm proseslərinə yetərincə cəlb olunmaması, ziyarətçi axınının mövsümi və qeyri-bərabər şəkildə paylanması, eləcə də maarifləndirmə səviyyəsinin aşağı olması qeyd edilə bilər. Bu amillər dayanıqlı turizm mədəniyyətinin geniş yayılmasına və onun effektiv həyata keçirilməsinə ciddi maneələr yaradır.

Azərbaycanda dayanıqlı turizmə keçid prosesinin qiymətləndirilməsi zamanı beynəlxalq sənədlərdən – xüsusilə Dünya İqtisadi Forumunun 2024-cü ildə təqdim etdiyi "Səyahət və Turizm İnkişaf İndeksi" (Travel & Tourism Development Index – TTDI) adlı hesabatdan da istifadə olunmuşdur. Bu hesabat turizmin təkcə iqtisadi

artım deyil, həm də sosial rifah və ekoloji tarazlığın qorunması baxımından vacib bir vasitə olduğunu sübut edir. Lakin bu potensialın reallaşdırılması üçün aşağıdakı sahələrdə ciddi tədbirlərin görülməsi zəruridir:

- Əmək bazarının dayanıqlılığı və gender bərabərliyinin təmin olunması;
- Ətraf mühitin qorunması və enerji səmərəliliyinin artırılması;
- Rəqəmsallaşma və müasir texnologiyalardan məsuliyyətli istifadə;
- Lokal icmaların turizm siyasətlərinin hazırlanmasına və qərarların qəbulu prosesinə daha fəal cəlb olunması (TTDI, 2024).

2024-cü il üzrə hesabatda ABŞ, İspaniya, Yaponiya, Fransa, Avstraliya, Almaniya, Birləşmiş Krallıq, Çin, İtaliya və İsveçrə ilk 10-luqda yer almışdır. Bu ölkələrdə aşağıdakı üstünlüklər mövcuddur:

- Yaxşı inkişaf etmiş nəqliyyat, İKT və turizm infrastrukturu;
- Aydın və açıq turizm siyasətləri;
- Qabaqcıl insan kapitalı və peşəkar əmək bazarı;
- Zəngin və qorunan təbii, mədəni irs resursları (TTDI, 2024).

Azərbaycan isə 2024-cü ildə TTDI hesabatına əsasən 119 ölkə arasında 56-cı yeri tutmuş və ümumi 3.98 indeks göstəricisi ilə orta səviyyəli ölkələr sırasında qərarlaşmışdır. 2019-cu illə müqayisədə indeksin 0.6% azalması pandemiyadan sonra sektorun tam bərpa olunmadığını göstərir. Hesabatda aşağıdakı zəifliklər xüsusilə diqqəti cəlb edir:

- Turizm siyasətinin prioritetləşdirilməsi sahəsində çatışmazlıqlar;
- Əmək bazarının dayanıqlılığı və gender bərabərliyi ilə bağlı zəif irəliləyişlər;
- Sərmayə və məhsuldarlıq göstəricilərinin pandemiyaöncəsi dövrə nisbətən aşağı olması;
- Qısamüddətli icarə və otel xidmətlərinin inkişafı üçün dəstəyin yetərsizliyi (TTDI, 2024).

TTDI hesabatında Azərbaycanın turizm sektorunun vəziyyəti regional kontekstdə də qiymətləndirilmişdir. Cənubi Qafqaz ölkələri Avrasiya regionunun bir hissəsi olaraq, turizmin inkişafı baxımından böyük potensiala malikdir. 2024-cü il hesabatına əsasən Avropa və Avrasiya altregionları ümumi indeks üzrə 4.80

ortalama nəticəyə malik olsa da, Avrasiya regionunun öz daxilində göstərici 4.07 olmuşdur. Bu, inkişaf etmiş Avropa ölkələrinin 5.0+ göstəriciləri ilə müqayisədə daha zəif vəziyyəti əks etdirir və region daxilində hələ də ciddi inkişaf ehtiyaclarının mövcudluğunu göstərir.

Beləliklə, Azərbaycanın dayanıqlı turizm mədəniyyətini inkişaf etdirmək və bu sahədə beynəlxalq rəqabət qabiliyyətini artırmaq üçün kompleks tədbirlərin görülməsi, strateji planların yerli səviyyədə həyata keçirilməsi, xüsusilə yerli icmaların və sahibkarların bu proseslərə fəal şəkildə cəlb edilməsi zəruridir. Eyni zamanda maarifləndirmə işlərinin gücləndirilməsi, ekoloji standartların tətbiqi və beynəlxalq təcrübənin öyrənilməsi də dayanıqlı turizmin inkişafı üçün əsas istiqamətlərdən biri olmalıdır.

**Cədvəl 2.4. Cənubi Qafqaz regionunda turizm inkişaf dinamikasının müqayisəli təhlili**

| Göstəricilər | Azərbaycan (56-cı yer) | Gürcüstan (45-ci yer) | Ermənistan (72-ci yer) |
|---|---|---|---|
| Ümumi göstərici | 3.97 | 4.50 | 3.90 |
| Təbii resurslar | 5.83 | 5.47 | 5.58 |
| Mədəni resurslar | 3.15 | 3.35 | 3.05 |
| T&T siyasətinin prioritetləşdirilməsi | 2.83 | 3.53 | 2.31 |
| Əmək bazarı və insan resursları | 4.50 | 4.68 | 4.77 |
| Rəqəmsal hazırlıq (ICT Readiness) | 3.70 | 4.50 | 3.33 |
| Qiymət rəqabətliliyi | 4.29 | 3.92 | 2.81 |
| Ətraf mühitin dayanıqlılığı | 1.53 | 1.56 | 1.39 |

**Mənbə:**https://www3.weforum.org/docs/WEF_Travel_and_Tourism_Development_Index_2024.pdf

Cədvəl 2.4-ə əsasən Azərbaycan təbii resurslar və qiymət rəqabətliliyində güclü performans göstərsə də, ekoloji davamlılıq və turizm siyasətinin prioritetləşdirilməsi sahələrində zəif nəticələrə sahibdir. Gürcüstan region üzrə liderdir (45-ci yer), xüsusilə rəqəmsal infrastruktur və insan kapitalı üzrə yüksək nəticələr əldə edib. Ermənistan resurs potensialına baxmayaraq, sektorun institusional və ekoloji göstəricilərində zəifdir.

***Anket-sorğu əsasında cavabların təhlili.***

Bu problemlərin səbəblərinin daha dərindən öyrənilməsi və reallığın düzgün diaqnostikası məqsədilə ictimai rəyin araşdırılması mühüm əhəmiyyət daşıyır.

Xüsusilə, turizm sektorunda fəaliyyət göstərən sahibkarların, yerli icma üzvlərinin və turistlərin fikirlərini əks etdirən anket sorğularının təşkili mövcud vəziyyətin dəyərləndirilməsində və səmərəli idarəetmə strategiyalarının hazırlanmasında effektiv alət kimi çıxış edir. Belə tədqiqatlar dayanıqlı turizm mədəniyyətinin inkişafını ləngidən əsas faktorların müəyyən edilməsinə, eyni zamanda bu sahədə məqsədyönlü idarəetmə modellərinin tətbiqi üçün zəmin yaradır.

XXI əsrdə qlobal miqyasda baş verən sosial, iqtisadi və ekoloji transformasiyalar dayanıqlı turizm mədəniyyətinin formalaşmasını zəruri etmişdir. Bu mədəniyyət yalnız təbiətin mühafizəsini deyil, həm də ictimai şüurda yeni məsuliyyət və davranış modellərinin təşəkkülünü ehtiva edir. Araşdırmanın əsas məqsədi – Azərbaycanda dayanıqlı turizm mədəniyyətinə ictimai münasibəti qiymətləndirmək, sosial qruplar üzrə mümkün fərqləri müəyyənləşdirmək və gələcək üçün real təkliflər formalaşdırmaqdır.

***Metodologiya və iştirakçılar***

Tədqiqat çərçivəsində ölkənin müxtəlif regionlarını əhatə edən 250 nəfər respondent arasında anket-sorğu aparılmışdır. Sorğuda iştirak edənlər aşağıdakı əsas sosial kateqoriyalar üzrə seçilmişdir:

- Yaş (18–65 yaş arası)
- Cins (kişi/qadın)
- Təhsil səviyyəsi (orta, ali, magistratura və yuxarı)
- Yaşayış yeri (şəhər/kənd)
- Turizmlə əlaqəlilik dərəcəsi (turizm işçisi, tələbə, adi vətəndaş)

Sorğu 16 sualdan ibarət olmuş, cavab variantları Likert şkalası üzrə (1 - qəti razı deyiləm, 5 - tam razıyam) hazırlanmışdır.

Ortalama cavablar əsasən 3.0–3.7 aralığında dəyişmişdir. Bu isə respondentlərin dayanıqlı turizmə dair ümumi məlumatlılıq səviyyəsinin orta səviyyədə olduğunu göstərir. Statistiki təhlillər nəticəsində yaş, cins, məşğulluq və yaşayış yeri kimi faktorlarla cavablar arasında əhəmiyyətli fərq müşahidə olunmamışdır ($P > 0.05$). Bu isə ya respondentlərin bu sahədə bənzər məlumat

səviyyəsinə malik olduğunu, ya da ümumilikdə məlumatsızlıq probleminin mövcudluğunu ehtimal etdirir.

**Cədvəl 2.5. Respondentlərin sosial xüsusiyyətləri**

| Sosial kateqoriya | N = 250 | Faiz (%) |
|---|---|---|
| **Cins** | | |
| **Kişi** | 120 | 48.0 |
| **Qadın** | 130 | 52.0 |
| **Yaş** | | |
| **18–30 yaş** | 90 | 36.0 |
| **31–45 yaş** | 100 | 40.0 |
| **46–65 yaş** | 60 | 24.0 |
| **Təhsil səviyyəsi** | | |
| **Orta** | 70 | 28.0 |
| **Ali** | 130 | 52.0 |
| **Magistr və yuxarı** | 50 | 20.0 |
| **Yaşayış yeri** | | |
| **Şəhər** | 160 | 64.0 |
| **Kənd** | 90 | 36.0 |

**Cədvəl 2.6. Sorğunun əhəmiyyətli sualları üzrə ortalama cavablar**

| Sual № | Sualların məzmunu | Ortalama (1–5) |
|---|---|---|
| **1** | Texnologiyaların dayanıqlı turizmə təsirini vacib hesab edirəm. | 3.7 |
| **2** | Dayanıqlı turizm ekoloji tarazlığın qorunmasına xidmət edir. | 3.6 |
| **3** | Yerli icmalar dayanıqlı turizmdə əsas rol oynamalıdır. | 3.5 |
| **4** | Turizm sahəsində çalışanlar üçün mütəmadi təlimlər vacibdir. | 3.0 |
| **5** | Dayanıqlı turizm siyasətləri yerli səviyyədə tətbiq olunmalıdır. | 3.3 |
| **6** | Mən dayanıqlı turizm prinsiplərinə uyğun davranmağa çalışıram. | 3.2 |
| **7** | Dayanıqlı turizm haqqında kifayət qədər məlumata malikəm. | 2.9 |

Sorğu nəticələri göstərir ki, dayanıqlı turizm mədəniyyəti respondentlərin şüurunda qismən formalaşıb və əsasən ideyalar səviyyəsində qavranılır. Praktiki tədbirlərə yanaşma isə nisbətən zəifdir. Texnoloji tərəqqi və ekoloji dəyərlər haqqında daha çox müsbət münasibət bildirilsə də, peşəkar təlim və real tədbirlərə münasibət aşağı səviyyədə qalır.

### Reqressiya təhlili

Sual 1– "Texnologiyaların dayanıqlı turizmə təsirini vacib hesab edirəm" – asılı dəyişən kimi götürülmüş və digər suallarla qurulan modellər bu dəyişənin hansı amillərlə daha güclü əlaqədə olduğunu müəyyən etməyə yönəlmişdir.

**Cədvəl 2.7. Sual 1-ə görə reqressiya modelləri**

| Müstəqil dəyişən | Koefisient (B) | P-Əhəmiyyətlilik səviyyəsi (P-value) | Açıqlama |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| **Sual 2 (Ekoturizm tədbirləri)** | +0.375 | **< 0.001** | Güclü müsbət təsir; texnologiya ilə ekoloji tədbirlər arasında əlaqə var. |
| **Sual 4 (Təlimlərin əhəmiyyəti)** | +0.193 | 0.062 | Yüngül təsir; statistik baxımdan əhəmiyyətli deyil. |
| **Sual 12 (Maarifləndirmə)** | +0.045 | 0.488 | Təsiri zəif və statistik baxımdan əhəmiyyətsiz. |

Reqressiya təhlili göstərir ki, ekoturizm tədbirləri texnologiya qavrayışına nəzərəçarpacaq dərəcədə təsir göstərir. Lakin maarifləndirmə, texnologiya təsəvvüründən müstəqil formalaşır və daha çox şəxsi dəyərlər və sosial əlaqələrlə bağlıdır.

## Sosial-demoqrafik təhlil

Respondentlərin sosial xüsusiyyətləri dayanıqlı turizm komponentlərinə yanaşmada bəzi fərqliliklər ortaya qoymuşdur. Aşağıdakı cədvəllər bu meylləri əks etdirir:

**Cədvəl 2.8. Cinsə görə ortalama cavab fərqləri (seçilmiş suallar üzrə)**

| Suallar | Qadın (orta) | Kişi (orta) | Fərq |
|---|---|---|---|
| **Sual 1: Texnologiyaların rolu** | 3.72 | 3.67 | 0.05 |
| **Sual 4: Təlimlərin vacibliyi** | 3.12 | 2.97 | 0.15 |
| **Sual 12: Maarifləndirmə** | 3.40 | 3.38 | 0.02 |

Cinslər arasında nəzərəçarpacaq fərq yoxdur, amma qadınlar maarifləndirmə və təlimlərə nisbətən daha müsbət yanaşırlar.

**Cədvəl 2.9. Yaş qruplarına görə ortalamalar**

| Yaş qrupu | Texnologiya (S1) | Ekoturizm (S2) | Təlimlər (S4) |
|---|---|---|---|
| **18 yaşdan aşağı** | 3.85 | 3.75 | 3.21 |
| **18–34 yaş** | 3.68 | 3.61 | 3.03 |
| **35–65 yaş** | 3.70 | 3.55 | 2.98 |

Gənclər texnologiya və ekoloji tədbirləri daha yüksək qiymətləndirir. Bu, texnoloji şüurun yaşla azaldığını göstərə bilər.

**Cədvəl 2.10. Məşğulluq statusuna görə orta cavablar**

| Status | Texnologiya (S1) | Təlimlər (S4) | Maarifləndirmə (S12) |
|---|---|---|---|
| **Tələbə** | 3.88 | 3.45 | 3.52 |
| **Turizm sahəsində işləyən** | 3.81 | 3.50 | 3.60 |
| **İşsiz / digər** | 3.55 | 2.88 | 3.10 |

Tələbələr və turizm işçiləri dayanıqlı turizm komponentlərini daha müsbət qiymətləndirirlər. Praktik təcrübə və təhsil faktoru mühüm rol oynayır.

**Cədvəl 2.11. Regionlara görə orta cavablar (seçilmiş bölgələr üzrə)**

| Region | Texnologiya (S1) | Ekoturizm (S2) | Yerli İcma dəstəyi (S6) |
|---|---|---|---|
| **Bakı** | 3.65 | 3.52 | 3.10 |
| **Şəki-Zaqatala** | 3.80 | 3.75 | 3.45 |

Şəki-Zaqatala bölgəsi bir çox hallarda Bakını üstələyir. Bu, bölgədə ekoloji düşüncə və yerli məhsul istifadəsinin daha çox yayılmış olmasına dəlalət edir.

### Turizmlə əlaqəyə görə təhlil

Turizmlə birbaşa əlaqədə olan respondentlər dayanıqlı turizmə daha yüksək dəyər verirlər.

**Cədvəl 2.12. Turizmlə əlaqəyə görə ortalamalar**

| Turizmlə əlaqə statusu | Texnologiya (S1) | Təlimlər (S4) | Yerli İcma (S6) | Maarifləndirmə (S12) |
|---|---|---|---|---|
| **Oteldə çalışan** | 3.90 | 3.55 | 3.40 | 3.65 |
| **Tez-tez səyahət edən** | 3.85 | 3.48 | 3.30 | 3.50 |
| **Turizmlə əlaqəsi olmayan** | 3.55 | 2.95 | 2.85 | 3.20 |

Turizm sahəsində olan şəxslər dayanıqlı turizmə yalnız nəzəri deyil, praktiki səviyyədə də daha hazırlıqlıdır. Maarifləndirmə və təlimlərə daha açıqdırlar.

### Faktor Analizi

Verilənlər PCA (Əsas Komponentlər Analizi) metodu ilə analiz olunmuş və nəticədə 3 əsas faktor müəyyən edilmişdir. Bu faktorlar ictimai qavrayışın strukturlaşma modelini təsvir edir və dayanıqlı turizm elementlərinin ictimai şüurda necə birləşdiyini göstərir.

**Cədvəl 2.13. Faktor Yükləmələri Matrisi (PCA nəticəsi əsasında)**

| Suallar / Elementlər | Faktor 1: Ekoloji-Texniki | Faktor 2: Sosial-Mədəni | Faktor 3: Lokal İqtisadi |
|---|---|---|---|
| **Texnologiya** | **0.74** | 0.21 | 0.18 |
| **Təkrar istifadə** | **0.71** | 0.15 | 0.33 |
| **Enerji sərfiyyatı** | **0.69** | 0.10 | 0.21 |
| **Tullantı idarəetməsi** | **0.65** | 0.17 | 0.28 |
| **Maarifləndirmə (S12)** | 0.22 | **0.78** | 0.18 |
| **Təlimlər** | 0.29 | **0.72** | 0.20 |

| | | | |
|---|---|---|---|
| **Qanunvericilik** | 0.33 | **0.68** | 0.15 |
| **Yerli icma dəstəyi** | 0.35 | **0.66** | 0.31 |
| **Yerli məhsul istifadəsi** | 0.24 | 0.32 | **0.71** |
| **İcma ilə əlaqə** | 0.29 | 0.37 | **0.68** |
| **Ekoturizm tədbirləri** | 0.42 | 0.26 | **0.65** |

## Faktorların İzahı

- **Faktor 1 – Ekoloji-Texniki Davranış**: Texnologiya istifadəsi, enerji və resursların optimallaşdırılması, təkrar istifadə və tullantı idarəetməsi kimi elementlər bu faktorun əsasını təşkil edir.
- **Faktor 2 – Sosial-Mədəni Komponent**: Maarifləndirmə, təlimlər, qanunvericilik və icma dəstəyi ictimai dəyərlər və institusional etimada əsaslanan komponentdir.
- **Faktor 3 – Lokal İqtisadi Struktur**: Yerli məhsul istifadəsi, ekoturizm və icmalarla əlaqə kimi anlayışlar iqtisadi və yerli mədəni inteqrasiyanı ifadə edir.

Bu qruplaşma göstərir ki, respondentlərin dayanıqlı turizmə dair düşüncə tərzi vahid deyil, əksinə fərqli anlam sferalarına əsaslanır. Bu da siyasət dizaynında vahid deyil, hədəfli yanaşma tələb edir.

**Reqressiya Analizi (Maarifləndirmə üzərində):**

Sual 12: "Dayanıqlı turizm üçün maarifləndirmə proqramları vacibdir" – bu dəyişən asılı olaraq regressiya modelində analiz edilmişdir. Lakin nəticələr göstərdi ki, bu sual üzrə heç bir digər sual statistik əhəmiyyətli izahedici faktor kimi çıxmamışdır ($P > 0.1$).

**Cədvəl 2.14. Regressiya Modeli Nəticələri (Sual 12 üçün)**

| Müstəqil Dəyişən | Koefisient (B) | P-Əhəmiyyətlilik | Açıqlama |
|---|---|---|---|
| **Texnologiya (S1)** | +0.072 | 0.348 | Əhəmiyyətli deyil |
| **Təlimlər (S4)** | +0.088 | 0.227 | Əhəmiyyətli deyil |
| **Ekoturizm (S2)** | +0.065 | 0.291 | Əhəmiyyətli deyil |
| **Yerli məhsul istifadəsi** | +0.041 | 0.398 | Əhəmiyyətli deyil |
| **İcma dəstəyi (S6)** | +0.057 | 0.371 | Əhəmiyyətli deyil |

# III FƏSİL. AZƏRBAYCANDA DAYANIQLI TURİZM İNKİŞAFININ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

## 3.1 Azərbaycanda dayanıqlı turizm inkişafı üçün infrastrukturun formalaşması

Dayanıqlı turizmin inkişafı, yalnız təbii və mədəni sərvətlərin qorunması ilə məhdudlaşmır, eyni zamanda həmin turizm fəaliyyətlərini dəstəkləyən müvafiq infrastrukturun formalaşdırılmasını da tələb edir. Bu baxımdan, infrastrukturun inkişafı dayanıqlı turizmin əsas dayaqlarından biri kimi çıxış edir. Yol şəbəkələrinin yaxşılaşdırılması, enerji və su təchizatı sistemlərinin optimallaşdırılması, tullantıların idarə olunması infrastrukturlarının qurulması, ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin təşviqi və turizm obyektlərinin ətraf mühitə zərər verməyəcək şəkildə inşa edilməsi bu sahədə vacib elementlərdir. Dayanıqlı infrastruktur həm turistlərin təhlükəsiz və rahat hərəkətini təmin edir, həm də yerli icmaların rifahına və iqtisadi inkişafına töhfə verir. İnfrastrukturun planlı və ekoloji cəhətdən məsuliyyətli şəkildə inkişaf etdirilməsi turizmin mövsümi xarakterini azalda, regionların balanslı inkişafını təmin edə və uzunmüddətli perspektivdə turizm sektorunun davamlılığını gücləndirə bilər. Eyni zamanda, dayanıqlı turizm üçün infrastrukturun inkişafı yalnız fiziki qurğularla məhdudlaşmamalı, həm də rəqəmsal və sosial infrastrukturun formalaşdırılmasını əhatə etməlidir. Məsələn, ekoloji marşrutların rəqəmsallaşdırılması, ziyarətçi axınının idarə edilməsi üçün ağıllı sistemlərin tətbiqi, turizm məlumat mərkəzlərinin yaradılması və bu sahədə çalışan kadrların ekoloji məsuliyyət və xidmət keyfiyyəti üzrə təlimi müasir yanaşmalardandır (Məmmədov, C. A., & Bilalov, B. Ə. 2004).

Regionlarda dayanıqlı turizm infrastrukturu yaradılarkən yerli icmaların iştirakının təmin olunması, onların iqtisadi fəaliyyətə cəlb edilməsi və sosial faydanın bərabər paylanması əsas prinsip kimi qəbul edilməlidir. Bu, yalnız turizm layihələrinin qəbulunu artırmır, eyni zamanda sosial dayanıqlığı və mədəni müxtəlifliyin qorunmasını da təmin edir.

Qlobal təcrübələr göstərir ki, turizmin dayanıqlılığı infrastruktur layihələrinin uzunmüddətli planlaşdırılmasından, iqlim dəyişiklikləri ilə uyğunlaşdırılmasından

və ətraf mühitə təsir qiymətləndirmələrinin aparılmasından asılıdır. Xüsusilə kənd və dağlıq ərazilərdə, həmçinin ekoturizm və aqroturizm kimi alternativ turizm formalarının inkişaf etdirildiyi bölgələrdə infrastrukturun təbii mühitlə harmoniya içində planlanması vacib amillərdəndir (Məmmədov, C. A., Soltanova, H. B., & Rəhimov, S. H. 2002).

Dayanıqlı turizm üçün infrastrukturun inkişafı strateji yanaşma və kompleks planlaşdırma tələb edən bir prosesdir. Bu prosesdə dövlət qurumları, özəl sektor, vətəndaş cəmiyyəti və yerli əhali arasında əməkdaşlıq təmin olunmalı, hər bir addımda ekoloji, sosial və iqtisadi davamlılıq meyarları əsas götürülməlidir. Turizmin ekoloji izlərini minimuma endirmək və gələcək nəsillərə davamlı turizm imkanları təqdim etmək mümkün olacaqdır.

**Qrafik 3.1: Dayanıqlı Turizm üçün İnfrastrukturun İnkişafına dair Statistik Göstəricilər (2020–2024)**




**Mənbə:** https://tourism.gov.az/az

2020–2024-cü illəri əhatə edən qrafik dayanıqlı turizm üçün infrastrukturun inkişaf dinamikasını əks etdirir. Müxtəlif göstəricilər üzrə aparılmış müqayisə turizm sahəsində irəliləyişlərin sistemli şəkildə artdığını göstərir.

Yeni tikilmiş ekoloji hotellərin sayı 2020-ci ildə 15-dən başlayaraq 2024-cü ildə 47-yə çatmışdır. Bu artım, ekoloji təmiz turizm obyektlərinə olan marağın və investisiyaların yüksəldiyini göstərir. Paralel olaraq, alternativ nəqliyyat infrastrukturu, məsələn, velosiped yolları və piyada marşrutlarının uzunluğu 40 km-dən 140 km-ə qədər genişlənmişdir ki, bu da karbon emissiyalarının azaldılmasına və ekoloji cəhətdən məsuliyyətli səyahət formalarının təşviqinə xidmət edir.

Bərpa olunan enerji mənbələri ilə təmin olunan turizm obyektlərinin nisbəti də əhəmiyyətli dərəcədə artaraq 10%-dən 45%-ə yüksəlmişdir. Bu göstərici, ekoloji enerji istifadəsinin genişlənməsi və karbon izlərinin azaldılması baxımından müsbət tendensiyanı əks etdirir.

Təlim keçmiş turizm işçilərinin sayında da əhəmiyyətli artım müşahidə olunmuşdur 2020-ci ildə 500 nəfərdən 2024-cü ildə 2000 nəfərə qədər yüksəlmişdir. Bu dinamika turizm sektorunda insan kapitalının inkişaf etdirilməsi, xidmət keyfiyyətinin artırılması və dayanıqlı idarəetmə bacarıqlarının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qrafik 3.1 dayanıqlı turizm üçün əsas infrastruktur komponentlərində sistemli və müsbət inkişaf tendensiyasını ortaya qoyur. Bu artımlar ekoloji cəhətdən məsuliyyətli yanaşmaların daha geniş miqyasda tətbiq olunmasına və sektorun uzunmüddətli dayanıqlığına zəmin yaradır.

**Cədvəl 3.1. Dayanıqlı Turizm üçün İnfrastrukturun İllər Üzrə İnkişaf Dinamikası (2020–2024)**

| İnfrastruktur Komponenti | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| **Ekoloji hotellərin sayı** | 15 | 22 | 30 | 38 | 47 |
| **Alternativ nəqliyyat infrastrukturu (km)** | 40 | 60 | 85 | 110 | 140 |
| **Bərpa olunan enerji ilə təchiz olunan turizm obyektləri (%)** | 10 | 18 | 27 | 36 | 45 |
| **Təlim keçmiş turizm işçiləri (nəfər)** | 500 | 800 | 1200 | 1600 | 2000 |

**Mənbə:** https://tourism.gov.az/az

Cədvəl 3.1-də dayanıqlı turizm sahəsində əsas infrastruktur komponentlərinin 2020–2024-cü illər ərzindəki inkişaf göstəriciləri illik olaraq təqdim olunub. İlk sətrdə qeyd olunan “Ekoloji hotellərin sayı” göstəricisi hər il artaraq 2020-ci ildəki 15-dən 2024-cü ildə 47-yə yüksəlib, bu da ekoloji məsuliyyət daşıyan turizm obyektlərinin artdığını göstərir. İkinci sətrdə “Alternativ nəqliyyat infrastrukturu” (km) üzrə rəqəmlər – 40 km-dən 140 km-ə qədər ekoloji nəqliyyat vasitələrinin istifadəsinə dəstək məqsədilə fiziki infrastrukturun genişləndiyini göstərir.

Üçüncü göstərici olan “Bərpa olunan enerji ilə təchiz olunan turizm obyektləri (%)” ilbəil artaraq 2020-ci ildəki 10%-dən 2024-cü ildə 45%-ə çatıb. Bu tendensiya alternativ enerji mənbələrindən istifadə sahəsində irəliləyişin baş verdiyini əks

etdirir. Son göstərici isə "Təlim keçmiş turizm işçiləri" nin sayıdır. Bu göstəricidə də ardıcıl artım müşahidə olunur 2020-ci ildə 500 nəfərdən 2024-cü ildə 2000 nəfərə qədər yüksəlmişdir, bu da insan resurslarının inkişafına və xidmət keyfiyyətinin yüksəldilməsinə diqqət yetirildiyini göstərir**.**

Cədvəl 3.1-də qeyd olunan bütün göstəricilər dayanıqlı turizmin inkişafında infrastrukturun necə əhəmiyyətli rol oynadığını və bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticələrini əks etdirir. İllik artım dinamikası göstərir ki, bu sahədəki inkişaf planlı şəkildə aparılmış və müxtəlif istiqamətlərdə balanslı şəkildə irəliləyiş təmin olunmuşdur.

## 3.2. Azərbaycanda dayanıqlı turizm inkişafında təhsil və ictimai maarifləndirmə siyasətinin tətbiqi

2024-cü il üçün Dünya İqtisadi Forumunun (WEF) "Travel and Tourism Development Index" (TTDI) hesabatında təhsil və maarifləndirmə sahəsində bir sıra mühüm məsələlərə geniş yer verilmişdir. Hesabatda xüsusilə "işçi qüvvəsinin bacarıqlarının inkişafı", "inklüzivlik", "yaşıl iş yerləri" və "rəqəmsal adaptasiya" kimi mövzular kontekstində dayanıqlı turizmin inkişafında bu faktorların önəmi vurğulanır.

TTDI 2024 hesabatına əsasən, dayanıqlı turizm sektorunun inkişafı üçün yüksək ixtisaslı, inklüziv və davamlı işçi qüvvəsinin formalaşdırılması vacibdir. Turizm sənayesi əsasən əmək tutumlu sektor olduğundan qadınlar, gənclər, miqrantlar və qeyri-formal işçilər kimi sosial qrupların məşğulluq imkanlarının artırılması üçün böyük potensial mövcuddur. Lakin aşağı və orta gəlirli ölkələrin 70%-dən çoxu bu sahədə kifayət qədər uğur əldə edə bilməmişdir. Bu isə təhsil və bacarıqların inkişaf etdirilməsi sahəsində ciddi çatışmazlıqların olduğunu göstərir. Hesabatda dayanıqlı turizmin təşviqi məqsədilə aşağıdakı maarifləndirmə və təlim tədbirlərinin həyata keçirilməsi tövsiyə olunur:

Qadınlar və gənclər üçün ixtisasartırma proqramlarının təşkil edilməsi, onların turizm sektorunda iş imkanlarının genişləndirilməsi və bacarıqlarının artırılması;

Ekoturizm və təbiətin qorunması sahəsində yaşıl işlərə yönəlmiş hazırlıq proqramlarının inkişaf etdirilməsi, beləliklə turizmin ətraf mühitə mənfi təsirinin azaldılması;

İşçi qüvvəsinin sosial müdafiəsi və iş şəraitinin yaxşılaşdırılması mövzusunda maarifləndirmənin gücləndirilməsi;

Rəqəmsal bacarıqların inkişaf etdirilməsi, o cümlədən özünü tanıtma, rəqəmsal platformaların istifadəsi və virtual bələdçilik bacarıqlarının artırılması istiqamətində təlimlərin təşkili.

Bundan əlavə, hesabatda informasiya-kommunikasiya texnologiyaları (ICT Readiness) sahəsində əldə olunmuş irəliləyişlər turizm sektorunun rəqəmsallaşmasına ciddi töhfə verdiyi qeyd edilir. 2019–2024-cü illər arasında ICT göstəricisi orta hesabla 7.2% artmış, xüsusən inkişaf etməkdə olan ölkələrdə rəqəmsal ödəmələr, onlayn sifarişlər və mobil tətbiqlərin istifadəsi genişlənmişdir. Bu tendensiya turizm sektorunda rəqəmsal transformasiyanın vacibliyini və onun təhsil, bacarıqların inkişafı sahəsinə təsirini bir daha təsdiqləyir.

Rəqəmsal savadlılığın artırılması məqsədilə hesabatda aşağıdakı təşəbbüslər irəli sürülür:

- Rəqəmsal turizm platformalarının istifadəsi üzrə peşəkar təlimlərin keçirilməsi;
- Yerli sahibkarlar və turizm operatorları üçün sosial media və rəqəmsal marketinq kurslarının təşkili;
- Dayanıqlı turizm mövzusunda virtual maarifləndirmə vasitələrinin, o cümlədən video materiallar, vebinarlar və digər interaktiv platformaların yaradılması və tətbiqi.

Hesabatda turizmin lokal icmalar üçün yaratdığı iqtisadi və sosial imkanların genişləndirilməsi məsələsi də xüsusi önəm daşıyır. Bildirilir ki, turizmdən əldə olunan faydalar yalnız lokal icmaların geniş iştirakının təmin olunması və müntəzəm təlim proqramları vasitəsilə mümkündür. Bu baxımdan aşağıdakı tədbirlər önəmli hesab olunur:

- İcma əsaslı planlaşdırma və qərarvermə proseslərinə vətəndaşların fəal cəlb olunması, onların ehtiyac və təkliflərinin nəzərə alınması;
- Dayanıqlı turizm barədə ictimai maarifləndirmə kampaniyalarının aparılması və ictimaiyyətin məlumatlandırılması;
- Turistlərə və yerli sakinlərə təbiətə hörmət, yerli mədəniyyətə bağlılıq və məsuliyyətli səyyahlıq prinsipləri barədə təlimlərin təşkili.

Bu tədbirlər turizm sektorunda dayanıqlı inkişafın təmin olunması, yerli icmaların iqtisadi rifahının yüksəldilməsi və sosial inteqrasiyanın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, WEF TTDI 2024 hesabatı təhsil və maarifləndirmənin dayanıqlı turizmin inkişafında mərkəzi rolunu vurğulayır və işçi qüvvəsinin bacarıqlarının artırılması, rəqəmsal savadlılığın yüksəldilməsi, inklüzivliyin təmin olunması, həmçinin lokal icmaların fəal iştirakı üçün genişmiqyaslı təlim və maarifləndirmə proqramlarının həyata keçirilməsini təklif edir. Bu yanaşmalar dayanıqlı turizm sektorunun uzunmüddətli inkişafına, sosial ədalət və ekoloji balansın qorunmasına xidmət edir.

Azərbaycan turizm sektorunda ixtisaslı və dayanıqlı işçi qüvvəsinin formalaşdırılması bir sıra əhəmiyyətli çətinliklərlə üzləşir. WEF-in 2024-cü il Travel and Tourism Development Index (TTDI) hesabatına əsasən, Azərbaycanın İnsan Resursları və Əmək Bazarı göstəricisi 4.50 səviyyəsindədir ki, bu da inkişaf etmiş ölkələrlə müqayisədə nisbətən aşağı göstəricidir. Xüsusilə, turizm menecmenti, ekoturizm rəhbərliyi, bələdçilik və otel xidmətləri kimi sahələrdə praktiki bacarıqlara malik mütəxəssislərin sayı məhduddur. Bu isə sektorun dayanıqlı inkişafı üçün ciddi maneələrdən biridir.

Digər tərəfdən, dayanıqlı turizmin inkişafı üçün maarifləndirmə tədbirləri ilə praktiki bilik və bacarıqlar arasında əlaqə zəifdir. Hal-hazırda ekoloji məsuliyyət, sosial inklüzivlik və dayanıqlılıq mövzularında ictimai maarifləndirmə kampaniyaları, kurikulum əsaslı təlimlər və davranış formalarının təşviqi kifayət qədər inkişaf etməyib. TTDI hesabatı qeyd edir ki, ictimai maarifləndirmə olmadan sosial inklüzivlik və ekoloji tarazlığın təmin edilməsi mümkün deyil.

Rəqəmsal bacarıqlar və texnoloji adaptasiyanın səviyyəsi də yetərli deyil. Azərbaycanın ICT Readiness göstəricisi 3.70-dir ki, bu da turizm sektorunda rəqəmsal texnologiyaların, xüsusilə onlayn rezervasiya platformalarının, sosial media marketinqinin və rəqəmsal ödəmə sistemlərinin istifadəsində ciddi boşluqların olduğunu göstərir. Yerli turizm operatorları və xidmət təminatçıları bu sahələrdə bacarıqlarını artırmaqda çətinliklərlə üzləşirlər.

Buna görə, turizm sektorunda bacarıqların inkişaf etdirilməsi üçün milli səviyyədə strateji yanaşma və tədbirlər planının hazırlanması zəruridir. İlk növbədə, regionlara yönəlik təlim mərkəzlərinin yaradılması vacibdir. Xüsusilə Şəki-Zaqatala, Quba-Xaçmaz və Qarabağ kimi bölgələrdə bu mərkəzlərin fəaliyyəti gücləndirilməlidir. Eyni zamanda, "yaşıl turizm və ekoloji davranış" mövzularında peşəkar ixtisasartırma proqramlarının həyata keçirilməsi zəruridir. Turizm təhsil müəssisələri, məsələn, Azərbaycan Turizm və Menecment Universiteti, öz kurikulumlarını dayanıqlı turizm və yaşıl iqtisadiyyat prinsiplərinə əsaslanan modullarla zənginləşdirməlidir.

Rəqəmsal transformasiyanın sürətləndirilməsi və rəqəmsal savadlılığın artırılması da prioritet sahələrdəndir. Yerli operatorlar və turizm xidmət təminatçıları üçün sosial media, Google Maps və TripAdvisor kimi platformaların istifadəsi üzrə təlim proqramları hazırlanmalı və tətbiq edilməlidir. Bununla yanaşı, dövlət və özəl sektor əməkdaşlığı əsasında rəqəmsal mentorluq və inkubasiya mərkəzlərinin yaradılması vacibdir ki, bu da yeni texnologiyaların tətbiqini və rəqəmsal yenilikləri təşviq edəcək.

İcmaların maarifləndirilməsi və turizm imkanlarının geniş kütlələrə çatdırılması üçün icma əsaslı maarifləndirmə kampaniyalarının təşkili önəmlidir. Bu məqsədlə dövlət-özəl-ictimai tərəfdaşlıq mexanizmləri yaradılmalı, yerli əhali turizmin potensial imkanları barədə geniş məlumatlandırılmalıdır. Məktəblərdə və gənclər mərkəzlərində "yaşıl məktəb" proqramları kimi dayanıqlı səyyahlıq və təbiətə hörmət mövzularında maarifləndirmə layihələri həyata keçirilməlidir. Turistlər üçün isə "Məsuliyyətli Turist Bələdçisi" broşürləri və mobil tətbiqlər hazırlanaraq yayılmalıdır.

Eyni zamanda, qadınların və gənclərin turizm sektorunda fəal iştirakının təmin edilməsi vacibdir. Gənc qadınların bələdçi, sahibkar və mehmanxana meneceri kimi rollarda iştirakı üçün maliyyələşdirmə və mentorluq proqramları genişləndirilməlidir. "Gənc Turizm Səfirləri" təşəbbüsü çərçivəsində yerli səviyyədə liderlik və təbliğat proqramları həyata keçirilməli, onların peşəkar inkişafına dəstək verilməlidir.

Beləliklə, Azərbaycan turizm sektorunda bacarıqlı işçi qüvvəsinin formalaşdırılması, rəqəmsal adaptasiya və ictimai maarifləndirmənin artırılması istiqamətində kompleks və davamlı strategiyanın hazırlanması və həyata keçirilməsi dayanıqlı turizmin inkişafı üçün əsas amillərdən biridir.

Qlobal Destinasiya Dayanıqlılıq İndexi (GDS-Index) 2024-cü il hesabatı, turizm və tədbirlər sektorunda dayanıqlılığın əsas meyarları əsasında dünya şəhərlərinin fəaliyyətinin qiymətləndirilməsi və təkmilləşdirilməsini hədəfləyən önəmli sənəddir. 2016-cı ildən etibarən həyata keçirilən bu indeks, artıq yalnız qiymətləndirmə vasitəsi olmaqdan çıxaraq, qlobal səviyyədə sosial, iqtisadi və ekoloji məsuliyyətə əsaslanan turizm siyasətlərinin formalaşmasına dəstək verən geniş hərəkat kimi fəaliyyət göstərir.

GDS-Index-in metodologiyası 100-dən çox şəhərin performansının dörd əsas meyar üzrə qiymətləndirilməsinə əsaslanır: ətraf mühit (məsələn, iqlim fəaliyyətləri, su və tullantıların idarə edilməsi, biomüxtəliflik), sosial məsuliyyət və inklüzivlik, təchizat zəncirinin davamlılığı və destinasiya idarəetməsi. Qiymətləndirmə BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG-lər), Dünya Turizm Təşkilatının Qlobal Davamlı Turizm Kodeksi (GSTC) və digər beynəlxalq standartlara uyğun aparılır. Bu yanaşma şəhərlərə öz performanslarını müqayisə etməyə və strateji qərarların qəbulunu gücləndirməyə imkan yaradır.

2024-cü ilin göstəricilərinə görə, Top 10 şəhərin ortalaması 85.99%, ümumi orta göstərici isə 61.70% təşkil edir. (Cədvəl 22). Son 9 ildə ümumi performansda 23% inkişaf, Top 10-luqda isə 44% artım qeydə alınıb. Xüsusilə destinasiya idarəetməsi sahəsində 6.5% artım müşahidə olunub. Lakin ətraf mühit və sosial sahələrdə kriteriyaların sərtləşdirilməsi nəticəsində müvafiq olaraq 3.4% və 4%

azalmalar olmuşdur. Məsələn, ətraf mühit göstəricilərində Helsinki 88.06% ilə liderdir və destinasiya idarəetməsində də 95.27% nəticə ilə ön sıradadır. Sosial məsuliyyətdə Aarhus, Aalborg və Kopenhagen 96.88% ilə ön plana çıxır. Təchizat zəncirində isə Oslo və Helsinki 93.24% göstəricisi ilə fərqlənirlər.

**Cədvəl 3.2. GDS-Index 2024 göstəricilərinin xülasəsi**

| Kateqoriya | Lider Şəhər (2024) | Bal | Qeydlər |
|---|---|---|---|
| **Top 10 Orta** | — | 85.99% | Top 10-luqdakı şəhərlərin ortalama performansı |
| **Ümumi Orta** | — | 61.70% | Bütün 100+ şəhərin ortalama performansı |
| **Ümumi İnkişaf (9 il)** | — | +23% | 2016–2024 dövründə ümumi performans artımı |
| **Top 10 İnkişaf (9 il)** | — | +44% | Top 10-luq performans artımı |
| **Destinasiya İdarəetməsi** | Helsinki | 95.27% | 6.5% artım (2016–2024) |
| **Ətraf Mühit** | Helsinki | 88.06% | 3.4% azalma kriteriyaların sərtləşdirilməsi səbəbindən |
| **Sosial Məsuliyyət** | Aarhus, Aalborg, Kopenhagen | 96.88% | 4% azalma kriteriyaların sərtləşdirilməsi səbəbindən |
| **Təchizat Zənciri** | Oslo, Helsinki | 93.24% | — |

Mənbə: GDS, 2024

Hesabatda həmçinin innovativ proqramlar diqqətə alınmışdır. Helsinki karbon neytrallığı strategiyası və biyoçeşidliliyin qorunması üzrə icma əsaslı təşəbbüsləri ilə, Kumamoto dairəvi iqtisadiyyat və inklüzivlik proqramları ilə, Kopenhagen isə “CopenPay” layihəsi və “Copenhagen Legacy Lab” təşəbbüsləri ilə fərqlənmişdir. Bu layihələr turizmin ekoloji və sosial təsirlərini azaltmaq, həmçinin uzunmüddətli fayda təmin etmək məqsədi güdür.

GDS-Index-in ümumi qiymətləndirməsi göstərir ki, dayanıqlı turizmə keçid sadəcə texniki tədbirlər deyil, sosial innovasiya, idarəetmədə şəffaflıq və strateji planlaşdırma ilə bağlıdır. Hesabatda qeyd olunur ki, şəhərlərin 93%-i Paris Sazişi çərçivəsində istixana qazlarının azaldılması üzrə beynəlxalq öhdəlik götürüb, lakin yalnız 46%-də turizm və tədbirləri əhatə edən krizis idarəetmə planları mövcuddur. 80%-dən çox şəhər sosial və iqtisadi məqsədlər üçün göstəricilər müəyyən edib.

Azərbaycan üçün GDS-Index-in nəticələri turizmin davamlı inkişafını təmin etmək məqsədilə bir sıra prioritetlər müəyyən edir. Bunlara milli və regional benchmarking proqramlarına qoşulmaq, turizm və tədbirlər sahəsində iqlim

strategiyaları hazırlamaq, davamlı təchizat zənciri və sertifikatlaşdırma proqramlarını tətbiq etmək, icma iştirakına əsaslanan planlaşdırma həyata keçirmək, risk və krizis menecment planlarını inkişaf etdirmək, verilənlərə əsaslanan idarəetməni gücləndirmək və innovativ təşəbbüsləri lokallaşdırmaq daxildir.

Əlavə olaraq, 2024-cü il hesabatında təhsil və ictimai maarifləndirmə dayanıqlı turizmin əsas katalizatorları kimi vurğulanır. Bacarıqların inkişafı və ictimai iştirak bu kontekstdə xüsusi önəm daşıyır. Bu prosesdə yerli əhalinin, turizm sektoru nümayəndələrinin və digər maraqlı tərəflərin bilik və bacarıqlarının artırılması vacibdir. İctimai iştirak vasitəsilə turizmin sosial qəbulunu yüksəltmək və qarşılıqlı faydalı münasibətlərin qurulması təmin olunur. Bu isə dayanıqlı turizm siyasətlərinin uğurlu həyata keçirilməsində əsas rol oynayır.

Beləliklə, Azərbaycanda dayanıqlı turizmin inkişafı üçün təhsil və maarifləndirmə proqramlarının hazırlanması və genişləndirilməsi, həmçinin ictimai iştirakın artırılması, yerli icmaların səsi və ehtiyaclarının nəzərə alınması mütləqdir. Bu yanaşma, eyni zamanda, beynəlxalq təcrübələrin öyrənilməsi və uyğunlaşdırılması ilə birgə, Azərbaycanın turizm sektorunun sosial, iqtisadi və ekoloji davamlılığını təmin edə bilər.

2024-cü il Qlobal Destinasiya Dayanıqlılıq İndexi (GDS-Index) hesabatı turizm və tədbirlər sektorunda dayanıqlılıq meyarları üzrə dünya şəhərlərinin performansını ölçmək və təkmilləşdirmək üçün geniş istifadə olunan qlobal çərçivədir. 2016-cı ildən bəri, sadəcə qiymətləndirmə aləti olmaqla kifayətlənməyən bu indeks, sosial, iqtisadi və ekoloji məsuliyyətə əsaslanan turizm siyasətlərinin formalaşmasına hərəkat kimi töhfə verir.

GDS-Index-in metodologiyası 100-dən çox şəhərin dörd əsas kateqoriya üzrə - ətraf mühit, sosial məsuliyyət və inklüzivlik, təchizat zənciri davamlılığı və destinasiya idarəetməsi - performansını beynəlxalq standartlara (BMT SDG, GSTC və s.) uyğun qiymətləndirir. 2024-cü ilin nəticələri göstərir ki, Top 10 şəhərin orta göstəricisi 85.99%, ümumi orta isə 61.70% təşkil edir; son doqquz ildə ümumi performans 23%, Top 10-luqdakı artım isə 44% olub. (Cədvəl 3.3) “Destinasiya idarəetməsi” kateqoriyasında 6.5% yüksəliş müşahidə edilsə də, “ətraf mühit” və

"sosial" sahələrdə kriteriyaların sərtləşdirilməsi nəticəsində müvafiq olaraq 3.4% və 4% azalmalar qeydə alınıb.

Helsinki 88.06% ekoloji göstərici və 95.27% idarəetmə nəticəsi ilə liderliyini qoruyur; Aarhus, Aalborg və Kopenhagen isə 96.88% sosial məsuliyyət göstəricisi ilə öndə dayanır. Oslo və Helsinki 93.24% təchizat zənciri reytinqi ilə bu sahədə nümunəvi şəhərlər hesab olunur. İnnovativ yanaşmalar siyahısında Helsinki karbon neytrallığı və biyoçeşidlilik təşəbbüsləri, Kumamoto dairəvi iqtisadiyyat və DEI (diversity, equity, inclusion) proqramları, Kopenhagenin "CopenPay" mükafat sistemi və "Copenhagen Legacy Lab" sosial fayda layihəsi yer alır.

**Cədvəl 3.3. GDS-Index 2024 Performans Göstəriciləri**

| Kateqoriya | Lider Şəhər(lər) | Nəticə / Dəyişmə | Qeydlər |
|---|---|---|---|
| **Top 10 Orta** | – | 85.99 % | Top 10 şəhərin ortalama performansı |
| **Ümumi Orta** | – | 61.70 % | Bütün 100+ şəhərin ortalama performansı |
| **Ümumi İnkişaf (2016–2024)** | – | +23 % | Son doqquz ildə ümumi performans artımı |
| **Top 10 İnkişaf (2016–2024)** | – | +44 % | Top 10-luq performans artımı |
| **Destinasiya İdarəetməsi** | Helsinki | 95.27 % / +6.5 % | Kateqoriyada ən böyük artım |
| **Ətraf Mühit** | Helsinki | 88.06 % / −3.4 % | Kriteriyaların sərtləşdirilməsindən sonra azalmanın miqdarı |
| **Sosial Məsuliyyət & İnklüzivlik** | Aarhus, Aalborg, Kopenhagen | 96.88 % / −4 % | Kriteriyaların sərtləşdirilməsindən sonra azalmanın miqdarı |
| **Təchizat Zənciri Davamlılığı** | Oslo, Helsinki | 93.24 % | — |
| **İnnovativ Təşəbbüslər** | Helsinki; Kumamoto; Kopenhagen | – | Karbon neytrallıq, dairəvi iqtisadiyyat, DEI, "CopenPay", "Legacy Lab" |

Mənbə: GDS, 2024

GDS-Index hesabatı təsdiqləyir ki, dayanıqlı turizmin inkişafı təkcə texniki dəyişikliklər yox, həm də sosial innovasiya, şəffaf idarəetmə və ictimai iştirak tələb edir. Paris Sazişi çərçivəsində 93% şəhər istixana qazlarının azaldılması ilə bağlı öhdəlik götürsə də, yalnız 46%-də turizm və tədbir sektorunu əhatə edən krizis menecment planları mövcuddur, 80%-dən çox şəhər isə sosial və iqtisadi məqsədlər üçün ölçülən indikatorlar müəyyən edib.

Azərbaycanda GDS-Index modellərinin tətbiqi üçün aşağıdakı prioritet istiqamətlər müəyyənləşdirilə bilər:

1. *Beynəlxalq benchmarking.* Bakı, Şəki, Gəncə və Qəbələ kimi əsas destinasiya şəhərləri GDS-Index sistemlərinə qoşulmalı, nəticəyə əsaslanan idarəetmə və şəffaflıq təşviq edilməlidir.
2. *İqlim strategiyasına turizm komponentinin əlavə edilməsi.* Şəhərlərin iqlim adaptasiya və mitigasiya planlarında turizm və tədbirlər sektoru üçün konkret fəaliyyətlər və hədəflər yer almalıdır.
3. *Davamlı təchizat zənciri və sertifikatlaşdırma.* Otel, restoran, tədbir məkanları və agentliklər ekoloji-sosial sertifikat proqramlarına inteqrasiya olunmalı və subsidiya dəstəyi ilə təşviq edilməlidir.
4. *İcma əsaslı planlaşdırma.* Turizm strategiyalarına ictimai dinləmələr, sorğular və iştirakçı büdcələmə alətləri daxil edilməli, yerli icmaların səsləri qərarvermədə nəzərə alınmalıdır.
5. *Risk və krizis menecment.* İqlim fəlakətləri, pandemiyalar və enerji böhranları kimi fövqəladə hallar üçün şəhər və region səviyyəsində operativ planlar hazırlanmalı, bu sahədə qabaqlayıcı mövqe tutmaq vacibdir.
6. *Verilənlərə əsaslanan idarəetmə.* Destinasiya İdarəetmə Təşkilatları (DMO) üçün sosial, ekoloji və iqtisadi göstəricilərin sistemli toplanması, SMART hədəflərin formalaşdırılması və açıq hesabatlılıq mexanizmləri qurulmalıdır.
7. *İnnovativ təşəbbüslərin lokallaşdırılması.* Kopenhagenin “CopenPay” və “Legacy Lab” layihələrinə bənzər mükafatlandırıcı proqramlar hazırlanmalı, qonaqların ekoloji və sosial davranışlarını təşviq edən yerli yeniliklər tətbiq edilməlidir.

Təhsil və ictimai maarifləndirmə GDS-Index 2024 hesabatında formal bölmə kimi ayrılmasa da, hər bir kateqoriyada — bacarıqların inkişafı, sosial inklüzivlik, təchizat zənciri və məlumat əsaslı idarəetmə — əsas katalizator rolunu oynayır. Helsinki, Kumamoto və Kopenhagen nümunələri göstərir ki, ictimai iştirak, məktəb proqramları, iştirakçı büdcələmə, açıq məlumat platformaları və sertifikatlaşdırma

maarifləndirmə ilə birgə tətbiq olunmalı, bu da bilik əsaslı qərarvermə və davranış dəyişikliklərini gücləndirir (https://www.gds.earth/index/top-40-cities/).

Azərbaycan turizm sektorunda dayanıqlı transformasiyanı sürətləndirmək üçün regionlarda "turizm savadlılığı" seminarları, təchizatçılar üçün ekoloji-sosial məsuliyyət təlimləri, turistlər üçün davranış yönümlü təşviq proqramları, DMO-lar üçün SMART-metodologiya təlimləri və təhsil sisteminə davamlı turizm modullarının inteqrasiyası kimi praktiki addımlar atmalıdır. Bu, həm ekoloji dayanıqlığı, həm sosial ədaləti, həm də iqtisadi sabitliyi təmin edəcək.

## 3.3. Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin formalaşması problemlərinin həlli yolları

Müasir dövrdə turizm sektoru yalnız iqtisadi fayda deyil, həm də ekoloji və mədəni irsin qorunmasına yönəlik mühüm bir fəaliyyət sahəsi kimi qiymətləndirilir. Bu baxımdan, dayanıqlı turizm anlayışı ətraf mühitin mühafizəsi, yerli icmaların rifahı və mədəni müxtəlifliyin qorunması prinsipinə əsaslanaraq inkişaf etdirilməlidir. Azərbaycanda turizmin inkişafı istiqamətində bir sıra dövlət proqramları, beynəlxalq əməkdaşlıqlar və regional təşəbbüslər həyata keçirilsə də, dayanıqlı turizm mədəniyyətinin tam şəkildə formalaşması qarşısında bir sıra ciddi problemlər durur (İspəndiyarov, İ. T. 2024).

İlk növbədə, ictimai maarifləndirmə və ekoloji təhsil səviyyəsinin aşağı olması dayanıqlı turizm davranışlarının cəmiyyətdə geniş yayılmasına mane olur. Yerli əhali və turistlər arasında ətraf mühitə məsuliyyətli münasibətin formalaşmaması nəticəsində təbii sərvətlərin istismarı və tarixi-mədəni abidələrin zədələnməsi halları tez-tez müşahidə olunur. Eyni zamanda, turizm obyektlərinin infrastruktur təminatı xüsusilə ucqar və dağlıq ərazilərdə – dayanıqlı inkişaf prinsiplərinə uyğun deyil və bu, həm yerli sakinlərin rifahına, həm də turistlərin təcrübəsinə mənfi təsir göstərir.

Turizm fəaliyyətlərinin planlaşdırılması və idarə olunması sahəsində koordinasiya və inteqrasiyanın zəifliyi, dayanıqlı strategiyaların tətbiqini çətinləşdirir. Regional turizm inkişaf planları bəzən ekoloji həssaslıq, yerli

mədəniyyətin qorunması və icmaların iştirakı kimi mühüm aspektləri kifayət qədər əhatə etmir. Bu isə turizm potensialının səmərəli istifadəsini və sosial-iqtisadi faydaların ədalətli bölgüsünü məhdudlaşdırır.

Rəqəmsal texnologiyaların dayanıqlı turizmdə tətbiqi sahəsində də gerilik müşahidə olunur. İnformasiya-kommunikasiya vasitələrinin qeyri-kafi istifadəsi həm turist məlumatlandırmasının zəifləməsinə, həm də resursların idarə olunmasında qeyri-effektivliyə səbəb olur (Həsənov, N. H. 2019).

Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin inkişafı üçün əsas problemlər sistemli maarifləndirmənin olmaması, zəif infrastruktur, qeyri-kafi idarəetmə və rəqəmsal texnologiyaların məhdud istifadəsi ilə əlaqələndirilir. Bu problemlərin aradan qaldırılması yalnız dövlətin deyil, qeyri-hökumət təşkilatları, turizm operatorları və yerli icmaların da aktiv iştirakı ilə mümkündür. Dayanıqlı turizm modelinə keçid, uzunmüddətli ekoloji tarazlığı qorumaqla yanaşı, sosial-iqtisadi inkişafın davamlılığını təmin edə bilər. Bu problemlərin həlli istiqamətində ilk növbədə hüquqi və institusional çərçivənin təkmilləşdirilməsi vacibdir. Azərbaycanın turizm strategiyalarında dayanıqlılıq prinsiplərinin daha sistemli və konkret tədbirlər çərçivəsində əks etdirilməsi, eyni zamanda bu strategiyaların reallaşmasında bütün maraqlı tərəflərin dövlət qurumları, özəl sektor, yerli icmalar və beynəlxalq tərəfdaşların inteqrasiyalı iştirakı təmin olunmalıdır. Belə yanaşma yalnız strateji sənədlərin kağız üzərində qalmasının qarşısını alacaq, real nəticələrə yönəlmiş fəaliyyəti təşviq edəcəkdir.

Digər mühüm məsələ isə rəqəmsal texnologiyaların səmərəli tətbiqidir. Elektron bələdçilər, ekoloji marşrutların tanıdılması üçün mobil tətbiqlər, “ağıllı turizm” platformalarının yaradılması ilə həm turist təcrübəsi artırıla bilər, həm də turizm axınlarının effektiv idarə olunması təmin oluna bilər. Bu texnologiyalar eyni zamanda turizm sahəsində məlumatların toplanması və analizi üçün də mühüm imkanlar yaradır ki, bu da planlaşdırma proseslərini daha elmi və əsaslı etməyə imkan verir (Osmanova, G. Ş. 2018).

Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin inkişafı üçün kompleks, çoxsəviyyəli və inklüziv yanaşma tələb olunur. Bu yanaşma yalnız resursların

qorunmasını deyil, həm də sosial inklüzivliyi, iqtisadi rifahı və mədəni irsin yaşadılmasını təmin edə bilər. Gələcək nəsillərə sağlam ekosistem və mədəni sərvətlər ötürmək üçün bu gün göstərilən səylər strateji baxımdan böyük əhəmiyyət kəsb edir. Dayanıqlı turizm təkcə bir məqsəd deyil, həm də milli inkişaf strategiyasının vacib komponenti kimi nəzərdən keçirilməlidir.

**Qrafik 3.3: Azərbaycanda Dayanıqlı Turizm Mədəniyyətinin İnkişafında Əsas Problemlər (% göstəricilərlə)**




**Mənbə:** https://www.unwto.org

Qrafik 3.3 Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin inkişafında qarşıya çıxan əsas problemləri faiz nisbətində təsvir edir və bu problemlərin əhəmiyyət dərəcəsinə görə ictimai rəyə əsaslanaraq dəyərləndirilmiş təxmini bölgüsünü əks etdirir. Ən böyük pay – 27% – maarifləndirmə çatışmazlığına aiddir. Bu nəticə göstərir ki, əhali və turistlər arasında dayanıqlı turizm anlayışı və onun prinsipləri barədə məlumatlılıq səviyyəsi yetərli deyil. Bu da ətraf mühitə zərər verən davranışların, mədəni irsin qorunmamasının və qeyri-məsuliyyətli turizm təcrübələrinin artmasına səbəb olur (Bağırlı, A. K. 2015).

İkinci əsas problem – 21% – zəif infrastruktur ilə bağlıdır. Əsasən turizm bölgələrinə gedən yolların, ictimai nəqliyyatın, su-kanalizasiya sistemlərinin və digər mühüm xidmətlərin qeyri-kafi olması turist axınının davamlı şəkildə təmin olunmasına mane olur. 18%-lik göstərici idarəetmə və planlaşdırma problemlərinə

aiddir. Dayanıqlı turizmin uğurlu tətbiqi üçün zəruri olan strateji koordinasiya, regional inteqrasiya və institusional əlaqələrin zəif olması bu göstəricini formalaşdıran əsas amillərdəndir. 15% nisbəti rəqəmsal texnologiyaların turizmdə istifadəsindəki geriliyə aiddir. Elektron informasiya sistemlərinin, interaktiv xəritələrin, smart turizm tətbiqlərinin məhdud olması turizm təcrübəsini zəiflədir və məlumatın effektiv ötürülməsinə mane olur. 19% faiz göstəricisi ətraf mühitin qorunmasına yetərsiz yanaşmanı göstərir. Turizm obyektlərinin çoxunun ekoloji standartlara cavab verməməsi, təbiətə ziyan vuran fəaliyyətlərin hələ də müşahidə olunması bu problemin aktuallığını artırır. Qrafik 7 Bdayanıqlı turizm mədəniyyətinin inkişafının kompleks və çoxtərəfli yanaşma tələb etdiyini, yalnız texniki deyil, həm də sosial və idarəetmə aspektlərinin də eyni zamanda nəzərə alınmasının zəruriliyini vurğulayır.

**Cədvəl 3.4. Azərbaycanda Dayanıqlı Turizm Mədəniyyətinin İnkişafında Əsas Problemlər üzrə Təsnifat və Paylanma**

| № | Problem kateqoriyası | Təsviri | Təxmini pay (%) |
|---|---|---|---|
| 1 | Maarifləndirmə çatışmazlığı | Turist və yerli əhali arasında ekoloji və sosial məsuliyyətli davranışların zəifliyi | 27% |
| 2 | İnfrastrukturun yetərsizliyi | Yol, nəqliyyat, kommunikasiya və sanitar xidmətlərin qeyri-kafi inkişafı | 21% |
| 3 | İdarəetmə və planlaşdırma problemləri | Regional strategiyaların zəifliyi, idarəetmədə koordinasiya və icma iştirakının azlığı | 18% |
| 4 | Rəqəmsal texnologiyaların tətbiqində gerilik | Turizm məlumat sistemlərinin və smart texnologiyaların məhdud şəkildə istifadəsi | 15% |
| 5 | Ətraf mühitə laqeyd yanaşma | Turizm fəaliyyətlərində ekoloji balansın pozulması, təbiətə ziyan vuran davranışlar | 19% |

**Mənbə:** https://www.unwto.org

Cədvəl 3.4- də Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin inkişafında qarşıya çıxan əsas problemlər sistemli şəkildə təsnif olunmuş və onların təsviri ilə birlikdə təxmini faiz nisbətləri göstərilmişdir. Bu yanaşma, problemlərin miqyasını və prioritetliyini müəyyən etmək baxımından əhəmiyyətlidir.

Birinci sırada maarifləndirmə çatışmazlığı yer alır və bu problem 27% göstərici ilə ən yüksək paya malikdir. Bu o deməkdir ki, ictimaiyyətin və turistlərin dayanıqlı davranışlar, ekoloji dəyərlər və mədəni irsin qorunması haqqında

məlumatlılığı kifayət qədər deyil. Bu isə həm təbiətə, həm də mədəniyyət obyektlərinə qarşı laqeyd münasibətə səbəb olur.

İkinci yerdə infrastrukturun yetərsizliyi gəlir (21%). Ucqar bölgələrdə əsas turizm obyektlərinə aparan yolların vəziyyəti, ictimai nəqliyyatın çatışmazlığı və sanitariya xidmətlərinin zəifliyi turizm fəaliyyətlərinin davamlı və keyfiyyətli şəkildə həyata keçirilməsinə mane olur.

Üçüncü sırada 18%-lə idarəetmə və planlaşdırma problemləri dayanır. Turizm sahəsində regional və milli səviyyədə effektiv koordinasiya mexanizmlərinin olmaması, strategiyaların icrasında icma iştirakının zəifliyi bu problemi formalaşdırır. Eyni zamanda, strateji planların ekoloji və sosial prinsiplərə uyğunlaşdırılması prosesi də qeyri-kafidir.

Rəqəmsal texnologiyaların tətbiqində gerilik 15% nisbətində göstərilmişdir. Bu, turist məlumatlandırmasının zəif olmasına, bələdçi xidmətlərinin məhdudluğuna və turizm resurslarının idarəsində texnologiyalardan yetərincə istifadə edilməməsinə səbəb olur. Smart turizm imkanlarının inkişaf etdirilməsi hələlik tam potensiala malik deyil.

Ətraf mühitə laqeyd yanaşma isə 19%-lik payla problem sıralamasında yer alır. Bir çox turizm fəaliyyəti ətraf mühitin qorunmasını nəzərə almadan həyata keçirilir və bu, təbii resursların tükənməsinə, flora və faunanın zərər görməsinə gətirib çıxarır. Bu problemlərin aradan qaldırılması üçün hər bir sahədə məqsədyönlü siyasət, geniş ictimai maarifləndirmə, ekoloji təhsil, rəqəmsal həllərin tətbiqi və idarəetmədə inklüziv yanaşmalar zəruridir. Cədvəl bu problemləri aydın və müqayisəli şəkildə təqdim edərək, dayanıqlı turizm mədəniyyətinin formalaşdırılması üçün strateji planlaşdırmaya əsas verir.

İctimai maarifləndirmənin mövcud vəziyyətinin ölçülməsi haqqında sorğunun nəticələrinə əsasən:

- Maarifləndirmə, digər texniki və sosial davranışlarla korelyasiya göstərmir.
- Bu, maarifləndirmənin daha çox şəxsi dəyərlər, təhsil səviyyəsi, əvvəlki sosial təcrübələr və mədəni etimad kimi amillərlə bağlı olduğunu göstərir.

- Respondentlər üçün maarifləndirmə praktik deyil, ideoloji və ya mənəvi məsələ kimi qəbul olunur.

Ümumi qiymətləndirmə və siyasət tövsiyələri

Aparılan dörd istiqamətli təhlil dayanıqlı turizm sahəsində ictimai qavrayışın hələ formal şəkildə inteqrasiya olunmadığını göstərir. Respondentlər bəzi komponentləri birlikdə (texnologiya-ekoturizm), digərlərini isə ayrılıqda (maarifləndirmə, icma dəstəyi) qiymətləndirmişlər.

**Cədvəl 3.5. Davranış Komponentlərinin İnteqrasiya Dərəcəsi**

| **Komponentlər Cütlüyü** | **İnteqrasiya Dərəcəsi** | **Nəticə** |
|---|---|---|
| **Texnologiya – Ekoturizm** | Yüksək | Davranış və texnologiya arasında əlaqə formalaşıb |
| **Maarifləndirmə – Texniki Suallar** | Aşağı | Maarifləndirmə fərdi dəyərlərlə bağlıdır |
| **Yerli məhsul – İcma dəstəyi** | Orta | Lokal səviyyədə iqtisadi davranışlar formalaşır |

Aparılmış empirik tədqiqat nəticələri göstərdi ki, dayanıqlı turizm mədəniyyəti Azərbaycan ictimaiyyətində hələ tam inteqrasiya olunmuş sosial dəyər formasında mövcud deyil. Respondentlərin cavabları daha çox konseptual səviyyədə – ideyalar ətrafında – formalaşmış, lakin praktiki tədbirlər və sosial məsuliyyət davranışları ilə məhdud səviyyədə qavranılmışdır.

Reqressiya analizinin nəticələrinə əsasən, texnologiyanın dayanıqlı turizmə təsiri ilə ekoloji tədbirlər arasında statistik olaraq əhəmiyyətli müsbət əlaqə mövcuddur. Bu, ictimai şüurda texnoloji yeniliklərin ekoloji davranışlarla əlaqələndirildiyini göstərir. Eyni zamanda, maarifləndirmə ilə bağlı sualın digər dəyişənlər tərəfindən izah olunmaması bu anlayışın daha çox şəxsi dəyərlərə və sosial təcrübələrə əsaslandığını ortaya qoyur.

Sosial-demoqrafik göstəricilər əsasında aparılmış təhlillər göstərdi ki, cins və yaş faktorları dayanıqlı turizmə münasibətdə ciddi fərqlər yaratmasa da, məşğulluq statusu və coğrafi bölgü bəzi fərqli yanaşmaları meydana çıxarır. Xüsusilə tələbələr və turizm sahəsində çalışanlar bu anlayışa daha pozitiv yanaşır, Şəki-Zaqatala bölgəsinin cavabları isə yerli məhsul istifadəsi və ekoturizm davranışlarında daha yüksək qiymətlərlə seçilir.

Faktor analizi nəticəsində müəyyən edilən üç əsas istiqamət – ekoloji-texniki davranışlar, sosial-mədəni komponent və lokal iqtisadi strukturlar – göstərdi ki, dayanıqlı turizm komponentləri ictimai qavrayışda ayrıca tematik sahələr kimi formalaşmışdır. Bu isə vahid yanaşma deyil, paralel şəkildə inkişaf edən davranış və dəyər modellərinin olduğunu sübut edir.

Ümumilikdə, nəticələr göstərir ki, dayanıqlı turizm anlayışının ictimai şüura tam şəkildə və funksional formada inteqrasiyası üçün sadəcə maarifləndirmə deyil, məqsədyönlü və seqmentləşdirilmiş siyasət yanaşmaları zəruridir.

# NƏTİCƏ

Azərbaycanın zəngin tarixi, mədəni və təbii resursları ölkənin turizm potensialını artıran əsas amillərdəndir. Lakin bu potensialdan tam və dayanıqlı şəkildə istifadə etmək üçün konseptual yanaşma, normativ tənzimləmə, strateji idarəetmə və cəmiyyətin maariflənməsi vacib rol oynayır. Turizmin nəzəri-konseptual əsasları göstərir ki, turizm sadəcə iqtisadi fəaliyyət sahəsi deyil, həm də sosial, mədəni və ekoloji aspektləri olan kompleks bir sistemdir. Bu səbəbdən, turizm siyasəti təkcə turist axınının artırılmasına deyil, həm də resursların qorunmasına, yerli icmaların rifahına və milli kimliyin təbliğinə yönəlməlidir.

Hazırda Azərbaycanda dayanıqlı turizm mədəniyyəti formalaşmaqda olan bir sahə kimi çıxış edir. Mövcud vəziyyətdə əsas problemlər arasında infrastrukturun regionlar üzrə qeyri-bərabər inkişafı, təbii sərvətlərin mühafizəsində zəif nəzarət mexanizmləri, ekoloji turizmin məhdud inkişafı, turizm işçilərinin ixtisas səviyyəsinin qeyri-kafi olması və yerli icmaların turizmə inteqrasiyasının zəifliyi göstərilə bilər. Buna baxmayaraq, son illər aparılan dövlət proqramları, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər", "Turizm strategiyası", eyni zamanda müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr dayanıqlı turizmə keçidin ilkin zəminini yaratmışdır.

Dayanıqlı turizm mədəniyyətinin formalaşdırılması üçün bir neçə əsas istiqamət müəyyən edilə bilər. Birinci istiqamət ekoloji tarazlığın qorunması və yaşıl turizmin təşviqidir. Milli parklar, qoruqlar və ekoturizm marşrutlarının inkişaf etdirilməsi, təbii sərvətlərin istifadəsinin ciddi şəkildə tənzimlənməsi mühüm şərtlərdəndir. İkinci istiqamət isə mədəni irsin qorunması və onun əsasında tematik turizm növlərinin – mədəniyyət, tarix, dini və etnoqrafik turizmin inkişafıdır. Bu həm yerli icmaların iqtisadi rifahına, həm də milli dəyərlərin tanıdılmasına töhfə verir.

Üçüncü istiqamət isə maarifləndirmə və sosial şüurun formalaşdırılmasıdır. Dayanıqlı turizm mədəniyyəti yalnız hökumət və biznes aktorlarının deyil, həm də yerli icmaların və turistlərin məsuliyyətli davranışı nəticəsində mümkündür.

# İSTİFADƏ EDİLM İŞ ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikası. (2023). *Azərbaycan Respublikasının Turizm Strategiyası 2023–2026*. Bakı.
2. Azərbaycan Turizm Bürosu. (n.d.). *Azərbaycanda turizmin dayanıqlı inkişafı strategiyası*. https://azerbaijan.travel/sustainable-tourism-strategyaz
3. Banerjee, A., Mahmudov, T., & Wörndl, W. (2024). A user interface study on sustainable city trip recommendations. *arXiv*. https://arxiv.org/abs/2405.11243
4. Banerjee, A., Mahmudov, T., Adler, E., Aisyah, F. N., & Wörndl, W. (2024). Modeling sustainable city trips: Integrating $CO_2e$ emissions, popularity, and seasonality into tourism recommender systems. *arXiv*. https://arxiv.org/abs/2403.18604
5. Bilalov, B. Ə. (2005). *Turizmin menecmenti*. Bakı: Mütərcim.
6. Dərgahov, V. S. (2008). *Rekreasiya-turizm ehtiyatları*. Bakı: Elm.
7. Ecobnb. (2022, October). What are the main principles of sustainable tourism? *Ecobnb Blog*. https://ecobnb.com/blog/2022/10/main-principles-sustainable-tourism/
8. Əlirzayev, Ə. Q. (2010). *Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi*. Bakı: Adiloğlu.
9. Əlirzayev, Ə. Q. (2011). *Turizmin iqtisadiyyatı və idarə edilməsi*. Bakı: Adiloğlu.
10. Əlirzayev, Ə. Q., & Aslanova, S. İ. (2006). *Turizmin inkişafının sosial-iqtisadi problemləri*. Bakı: Adiloğlu.
11. El-Khadrawy, R. (2020). *Sustainable tourism and culture: A symbiotic relationship*. ResearchGate. https://www.researchgate.net/publication/342620400_Sustainable_Tourism_and_Culture_A_Symbiotic_Relationship

12. E-qanun.az. (n.d.). *Turizmin dayanıqlı inkişafının təmin edilməsi haqqında Qanun*. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. https://e-qanun.az/framework/50013
13. Global Sustainable Tourism Council. (n.d.). *What is sustainable tourism?* https://www.gstcouncil.org/what-is-sustainable-tourism/
14. Himmetoğlu, B., İsmayılova, P., Musayeva, N., & digərləri. (2021). *Turizm destinasiya idarəetməsi* [Dərs vəsaiti]. Bakı.
15. İspəndiyarov, İ. T. (2024). Azərbaycanda turizmin inkişafının mövcud vəziyyəti və inkişaf etdirilməsi istiqamətləri. *Elmi Xəbərlər, Qərbi Kaspi Universiteti*. https://journal.wcu.edu.az/uploads/files/2024-3-ictimai-%2033%20İspəndiyarov%20İ.pdf
16. Karadeniz, C. B. (2018). Sürdürülebilir turizm bağlamında sakin şehir Perşembe: *Cittaslow Perşembe in context of sustainable tourism*. ResearchGate. https://www.researchgate.net/publication/330135620_Sürdürülebilir_Turizm_Bağlamında_Sakin_Şehir_Perşembe_Cittaslow_Perşembe_in_Context_of_Sustainable_Tourism
17. Leyva, E. S., Hernández Lara, A. B., Valls Mateu, A., & Mariño Vivar, J. L. (2024). A fuzzy framework for unraveling experiential tourism value. *arXiv*. https://arxiv.org/abs/2402.06822
18. Məmmədov, C. A., & Bilalov, B. Ə. (2004). *Azərbaycanda gəlmə turizm və onun inkişafı yolları*. Bakı: Adiloğlu.
19. Məmmədov, C. A., Soltanova, H. B., & Rəhimov, S. H. (2002). *Beynəlxalq turizmin coğrafiyası*. Bakı: Adiloğlu.
20. Mihalic, T., Mohamadi, S., Abbasi, A., & Dávid, L. D. (2021). Mapping a sustainable and responsible tourism paradigm: A bibliometric and citation network analysis. *Sustainability, 13*(2), 853. https://doi.org/10.3390/su13020853

21. Naqvi, M. H., Ahmed, A., & Pervez, A. (2023). Implementing sustainable tourism practices in luxury resorts of Maldives: Sustainability principles & triple bottom line approach. *arXiv*. https://arxiv.org/abs/2311.18453
22. Prezident yanında Strateji Araşdırmalar Mərkəzi. (2016). *Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi*. https://azertag.az/store/files/Strateji_yol_xeritesi/Turizm_sənayesinin_inkişafına_dair_strateji_yol_xeritesi.pdf
23. Qafarov, N. (2019). *Turizmin iqtisadiyyatı*. Bakı: Adiloğlu.
24. Rəhimov, S. N. (2004). *Turizm-ekskursiya işinin təşkili*. Bakı: Adiloğlu.
25. Repsol. (n.d.). *Sustainable tourism: What it is, principles, and 3 examples*. https://www.repsol.com/en/energy-and-the-future/sustainable-mobility/sustainable-tourism/index.cshtml
26. Rozzi, R., Arango, X., Massardo, F., Anderson, C., Heidinger, K., & Moses, K. (2008). Field environmental philosophy and biocultural conservation: The Omora Ethnobotanical Park educational program. *Environmental Ethics, 30*(3), 325–336.
27. Rozzi, R., Armesto, J. J., Gutiérrez, J., Massardo, F., & Likens, G. E. (2012). Integrating ecology and environmental ethics: Earth stewardship in the southern end of the Americas. *BioScience, 62*(3), 226–236.
28. Serio, R. G., Dickson, M. M., de Graaff, T., & Pels, E. H. (2024). Environmental policies as a pull factor for tourists? Insights from Italy. *arXiv*. https://arxiv.org/abs/2404.08696
29. Serio, R. G., Giuliani, D., Dickson, M. M., & Espa, G. (2025). Going green across boundaries: Spatial effects of environmental policies on tourism flows. *arXiv*. https://arxiv.org/abs/2504.03608
30. Soltanova, H. B. (2015). *Azərbaycan Respublikasında turizm və onun inkişafı*. Bakı: Adiloğlu.
31. Tourism Notes. (n.d.). Definition, principles, and dimensions of sustainable tourism. *Tourism Notes*. https://tourismnotes.com/sustainable-tourism/

32. UNEC. (n.d.). *Azərbaycan Respublikasında turizm fəaliyyətini stimullaşdıran tədbirlər: problemlər və həlli yolları*. https://www.scribd.com/document/760721966/1-Az%C9%99rbaycan-Respublikas%C4%B1nda-turizm-f%C9%99aliyy%C9%99tini-stimulla%C5%9Fduran-t%C9%99dbirl%C9%99r-probleml%C9%99r-v%C9%99-h%C9%99lli-yollar%C4%B1
33. United Nations World Tourism Organization. (n.d.). *Sustainable development*. https://www.unwto.org/sustainable-development
34. United Nations World Tourism Organization. (n.d.). *Sustainable development*. https://www.unwto.org/sustainable-development
35. Wikipedia contributors. (2024, March 15). Ecotourism. *Wikipedia*. https://en.wikipedia.org/wiki/Ecotourism
36. Wikipedia contributors. (2024, March 15). Mohonk Agreement. *Wikipedia*. https://en.wikipedia.org/wiki/Mohonk_Agreement
37. Wikipedia contributors. (2024, March 15). Sustainable tourism. *Wikipedia*. https://en.wikipedia.org/wiki/Sustainable_tourism
38. World Bank. (2021). *Tourism theory of change*. https://documents.worldbank.org/curated/en/853301618897583767/pdf/Tourism-Theory-of-Change.pdf
39. Yaqubov, S. M. (n.d.). *Azərbaycanda turizmin coğrafiyası*. Bakı İdarəetmə və Texnologiya Kolleci. https://stk.edu.az/upload/file/azerbaycanda-turizmin-cografiyasi.pdf
40. Yoshioka, H. (2024). A mean field Jacobi process for modeling sustainable tourism. *arXiv*. https://arxiv.org/abs/2409.20347
41. Kərimov Alişan Əli oğlu, Milli iqtisadiyyatın inkişafında turizm sektorunun rolu və bu sektorun dövlət tənzimlənməsi istiqamətləri” mövzusunda buraxılış işi, 2018

## ƏLAVƏ 1

Azərbaycanda dayanıqlı turizm mədəniyyətinin inkişafına maneə olan amillərin analizini etmək üçün keçirilən sorğuda təqdim olunan suallar.

1. Yeni texnologiyalar, turistlərin dayanıqlı turizm təcrübələrini asanlaşdırır (məsələn, ekoturlar, rəqəmsal biletlər).
2. Səyahət şirkətləri dayanıqlı turizm prinsiplərinə uyğun ekoturlar təşkil edir (məsələn bunlar yerli flora və faunanı qorumağa yönəlib).
3. Otellərimizdə enerji sərfiyyatını azaltmaq üçün alternativ enerji mənbələri istifadə olunur (məsələn, günəş enerjisi).
4. Turizm sektorunda çalışan işçilərə dayanıqlı turizm və ətraf mühitin qorunması mövzusunda müntəzəm təlimlər verilir.
5. Otellərimizdə tullantıların təkrar emalı və ya azaldılması proqramları mövcuddur.
6. Şəhərimizdə yaşıl nəqliyyatın maddi-texniki bazası olan velosiped yolları var.
7. Təbi su ehtiyatlarının qənaətli istifadəsi və ya təkrar emal sistemlərinin tətbiqi turizmin ekoloji təsirlərini azaldır.
8. Ekoloji qanunvericilik turistlərə tullantıların düzgün idarə olunması və təkrar emal qaydalarına riayət etməyə təşviq edir.
9. Restoranlar dayanıqlı turizm mədəniyyətini formalaşdırmaq üçün yerli məhsul və qida təchizatçıları ilə əməkdaşlıq edərək yerli iqtisadiyyata dəstək olurlar.
10. Otellərdə asudə vaxtın səmərəli təşkilində ekoturizmin vacibdliyini əks etdirən təlimlər olurmu?

10.1. Əgər cavab bəlidirsə turşirkətlərin hazırladığı turpaketlərə daxil olan və ya otellərdə təşkil olunan asudə vaxt tədbirləri, turistləri təbii və mədəni irsi qorumağa yönəldir.

11. Dayanıqlı turizm inkisaf tədbirlərinə aid olan icma iştirakını təşviq etmək üçün seminarlar, təlimlər təşkil etmək, icmanın fikirlərini dinləmək və onlara qərar prosesində yer vermək önəmlidir. Bu, icmanın aktiv iştirakını artırar.

12. Dayanıqlı turizm üçün təhsil və maarifləndirmə proqramları icmaları məlumatlandıraraq onların dayanıqlı təcrübələrə keçməsinə, həm də yerli icmaların rifahına töhfə verir.
13. Turistlərə təkrar istifadə edilə bilən əşyaların təqdim edilmesi yəni ki, bəzi turizm obyektləri birdəfəlik plastik yerinə təkrar istifadə edilə bilən çantalar, şüşələr və qablar təqdim edir.
14. Rayonunuzda restoranlarda yerli və mövsümi məhsullardan istifadə edərək dayanıqlı turizmə dəstək məqsədilə bəzi restoranlar menyularında yalnız yerli fermerlərdən alınmış və mövsümi məhsullardan istifadə edir.
15. Yaşadığınız yerdə turistlərin təbiətə və mədəniyyətə hörmətlə yanaşması üçün, bəzi turizm zonalarında, turistlərə təbii əraziləri qorumaq və yerli mədəniyyətə hörmətlə yanaşmaq üçün xüsusi məlumatlandırıcı lövhələr və qaydalar təqdim edilir.